# ALLAH ÜÇÜN YAŞAMAQ

**De: “Şübhəsiz ki, mənim namazım da, ibadətlərim də, həyatım və ölümüm də aləmlərin Rəbbi Allah üçündür! (Ənam surəsi, 162)**

**Harun Yəhya**

# MÜNDƏRİCAT


MÜSƏLMANIN HƏYATININ MƏQSƏDİ:

Allah rizası

Allah rizası üçün ciddi bir səy

Nəfsini tanımaq

Şirkdən çəkinmək

ALLAH RİZASININ ƏN ÇOXUNU AXTARMAQ

Allah rizasının açarı: Vicdan

Allah üçün sevmək

Mömin xüsusiyyətləri

Möminlərə edilən təzyiqlər

CAHİLLİYYƏ CƏMİYYƏTİNDƏ HƏYAT

Cahil cəmiyyətində insanlara verilən dəyərin Ölçüsü

Maddi dəyərlərə həddindən artıq əhəmiyyət verənlər

Cahil cəmiyyətində səhv əxlaq anlayışı

Sonsuza qədər yaşamaq istəyi

Cahil cəmiyyətindəki din anlayışı

ALLAHDAN BAŞQA İLAHLAR QƏBUL EDƏNLƏRİN ƏBƏDİ MƏKANI: CƏHƏNNƏM

YALNIZ ALLAHIN RİZASINI AXTARANLARIN

ƏBƏDİ MƏKANI: CƏNNƏT

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI Və ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş

və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# MÖMİNLƏRİN HƏYATININ MƏQSƏDİ: ALLAH RİZASI

**Allah, Onun rizasını arayan şəxsləri bu Kitabla əmin-amanlıq yollarına yönəldir, onları Öz izni ilə zülmətlərdən nura çıxarır və düz yola yönəldir. (Maidə surəsi, 16)**

İman edənlərlə digər insanlar arasındakı fərq nədir? Bu suala səmimi olaraq iman etməyənlərdən fərqli cavablar gələ bilər. Onlar, möminlərlə aralarında mədəni və əxlaqi bəzi ayrılıqlar olduğunu söyləyə bilərlər. Saleh möminlərin "dünya görüşü"nün fərqli olduğunu, onların bəzi "dəyər"lərə inandıqlarını, özlərinin isə bu "dəyər"ləri qəbul etmədiklərini irəli sürə bilərlər. Müsəlmanların özlərindən fərqli fikirlər daşıdıqlarını göstərə bilərlər.

Amma əslində bu söylədikləri, yalnız təməl bir fərqliliyin nəticələri olaraq ortaya çıxmışdır və yalnız gözlə görünən bəzi fərqlərdir. Onlar, saleh möminlərin həqiqətdə özlərindən hansı istiqamətdə fərqli olduqlarını əsasən anlaya bilməzlər. (Onsuz da bu fərqi anlamamış olduqları üçün mömin deyildirlər.) Müsəlman, Allahın, dininə bağlananlara verdiyi bir addır. Quranda təsvir edilən müsəlmanları digər insanlardan ayıran əsas fərq, bu insanların Allahın sonsuz qüdrətinin tam mənasıyla fərqində olmalarıdır. Allahın sonsuz qüdrətinin fərqində olmaq isə, sadəcə, Yaradanımız Uca Allahın var olduğunu təsdiq etmək demək deyil. Allah Quranda bu həqiqəti belə bildirir:

**De: “Sizə göydən və yerdən ruzi verən kimdir? Qulaqlara və gözlərə hakim olan kimdir? Ölüdən diri çıxaran, diridən də ölü çıxaran kimdir? İşləri yoluna qoyan kimdir?” Onlar deyəcəklər: “Allah!” De: “Bəs belə olduğu halda Allahdan qorxmursunuz?” O sizin Haqq Rəbbiniz olan Allahdır. Haqdan sonra zəlalətdən başqa nə ola bilər? Siz necə də haqdan döndərilirsiniz! (Yunis surəsi , 31-32)**

Ayədə sual soruşulan adam, Allahın varlığına inandığını söyləyən və Onun sifətlərini qəbul edən, amma bütün bunlara baxmayaraq , "Allahdan qorxub- çəkinmə" xüsusiyyətindən məhrum olan və Allahdan üz çevirmiş biridir. Quranda xəbər verildiyi kimi, şeytan da Allahın varlığına inandığını, Rəbbimizdən qorxduğunu söyləyir, buna baxmayaraq ağılsız üsyankar bir rəftar göstərir və çox çirkin bir əxlaq sərgiləyir.

Allahın böyüklüyünü qavramaq bu açıq həqiqəti yalnız sözlə dilə gətirməkdən ibarət deyil. Müsəlmanlar Allahın varlığının və böyüklüyünün fərqinə varan, Onu çox sevən, Ondan "qorxub - çəkinən" və həyatlarını fərqinə vardıqları bu böyük həqiqətə görə nizamlayan insanlardır. Digərləri isə, ya Allahı inkar edənlər və ya Allahın varlığını

yuxarıdakı ayədə təsvir edilən insanınkına bənzər bir tərzdə qəbul etməsinə baxmayaraq Allahdan "qorxub – çəkinməyənlər"dir.

Bu xüsusiyyətdəki insanların həyatları, özlərini yaratmış olan Allahın fərqində olmadan sürdükləri həyatlardır. Bu insanlar, böyük bir ağılsızlıqla, həyatlarının kim tərəfindən, necə və niyə başladıldığını gözardı edərlər. Öz ağıllarına görə, zehinlərində, Allaha və Onun dininə yer olmayan yeni bir həyat qurmağa çalışırlar. Quranda isə, belə bir həyatın boş və çürük bir təmələ əsaslandığını, məhvə məhkum olduğunu Rəbbimiz bu hikmətli bənzətmə ilə izah edir:

**Binasını Allah qorxusu və Onun rizası üzərində quran kəs daha yaxşıdır, yoxsa binasını dağılmaqda olan uçurumun lap kənarında quran və onunla birlikdə Cəhənnəm oduna yuvarlanan kəs? Allah zalım qövmü doğru yola yönəltməz. (Tövbə surəsi, 109)**

Allahın ayədə də xəbər verdiyi kimi, Quranda təsvir edilən şəkildə bir imana sahib olmayanların həyatları, "yıxılacaq uçurum"ların kənarlarında quruludur. Onların həyatdakı tək məqsədləri "bu dünya"da xoşbəxtliyi və rahatlığı əldə etməkdir. Bu insanların bəzisi, özünə "zəngin olmaq" kimi bir hədəf təyin edər. Bu hədəfinə çatmaq üçün əlindən gələni edəcək, bütün fiziki və zehni gücünü zəngin olmaq üçün istifadə edəcək. Bəzisi də, həyatdakı məqsədini "etibar sahibi və məşhur bir insan olmaq" olaraq hədəf seçər. Bunu əldə etmək üçün də əlindən gələn hər şeyi edər. Hər cür çətinliyə dözər, müxtəlif fədakarlıqlar edər. Amma bunların hamısı, ölümlə birlikdə yox olan, yalnız dünya həyatına dair hədəflərdirlər. Hətta bir çoxu hələ həyatdaykən də itirilə bilər. Bundan başqa, bəhsi keçən kəslər bu hədəflərinə çatsalar, həyatları boyunca bu hədəflərinə sahib olsalar, hətta planladıqlarından daha çoxunu əldə etsələr belə heç bir zaman əldə etdikləri onları mənəvi olaraq təmin etməyəcək, axtardıqları dinclik, xoşbəxtlik, sevgi və rahatlığı əldə edə bilməyəcəklər. Çünki həqiqi xoşbəxtlik, dərin sevgi və ürək rahatlığı ancaq səmimi imanla qazanılan bir nemətdir.

Halbuki mömin, Allahın varlığının və gücünün fərqindədir. Allahın onu nə üçün yaratdığını və ondan nələr istədiyini bilir. Bu səbəblə də, dünyadakı əsl məqsədi Allahın razı olduğu bir qul olmaq üçün çalışmaqdır. Özünü məqsədinə çatdıracaq hər yolu sınayar, bunun üçün ciddi bir səy göstərər. Bunun sayəsində - digər insanlar üçün məhvdən başqa bir şey olmayan - ölümün də həqiqi mənasını bilir: Ölüm əsla bir yoxluq, yox olmaq deyil, əsl həyata keçid mərhələsidir.

Mömin olmayanların bir qismi, böyük bir ağılsızlıq nümunəsi olaraq həyatlarının təsadüfən və "öz-özünə" meydana gəldiyini sandıqları kimi, həyatlarını bitirən ölümün də

“öz-özünə" olan bir "qəza" olduğunu düşünürlər. Halbuki həyatı yaradan da, ölümü yaradan da Allahdır. Əsla bir təsadüf, ya da qəza olmayan ölüm, Allahın xüsusi olaraq yaratdığı, vaxtı və yeri təyin olunmuş bir hadisədir.

Məhz mömin də, Allahın hər şeyə hakim olduğunu bilən və ölümün bir son deyil, əsl həyata (axirət) keçid mərhələsi olduğunu qavrayan insandır. Bu həqiqətlərin fərqindəykən də, əlbəttə digərləri kimi həyatını "yıxılacaq bir uçurumun kənarına" qurmaz. Özünü və bütün kainatı Yaradanın Uca Rəbbimiz olduğunu, həyatın, ölümün və ölüm- sonrası həqiqi həyatın əsl sahibinin Allah olduğunu bildiyi üçün, Allaha yönələr. Pulun, vəzifə və mövqenin, fiziki gözəlliyin Allahın yaratdığı və hər an yaratmağa davam etdiyi bu nizam içində əsl qurtuluş yolu olmadığını görər. Bunlar ancaq, Allahın qoyduğu qaydalar sayəsində qısa bir müddət məqbul olan "səbəb"lərdir. Allahın yaratmış olduğu nizamın təməli isə Allahın razılığıdır. Çünki Allah yalnız razılığına uyanları doğru yola müvəffəq edəcəkdir:

**Allah, Onun rizasını arayan şəxsləri bu Kitabla əmin-amanlıq yollarına yönəldir, onları Öz izni ilə zülmətlərdən nura çıxarır və düz yola yönəldir**. (Maidə surəsi, 16)

Mömin, Allahın razılığını axtardığı üçün mömindir. Məhz mömini, digərlərindən ayıran ən əhəmiyyətli fərq buradadır. Möminlər, dinin Allahın razılığını qazanmaq üçün izləniləcək haqq yol olduğunu bilərkən, bir çoxlarının cahil düşüncələrinə görə din, bəzi inancları ehtiva edən qaydaların cəmidir və həyatlarında əhəmiyyətli bir yeri yoxdur. Heç şübhəsiz, bu insanlar, bu səhvlərinin acısını dünyada hər istiqamətiylə yaşayırlar, axirətdə qarşılaşacaqları acı son isə çox daha böyükdür.

Onsuz da həqiqi möminlərlə, mömin təqlidi edən ikiüzlülər (münafiqlər) arasındakı fərq də burada ortaya çıxar. Möminlər, dini Allahın rizası üçün şövqlə, istəklə və coşğuyla yaşayarkən, münafiqlər öz ağıllarına görə bəzi mənfəətlər əldə etmək üçün yalnız təqlidi rəftarlar göstərərlər. Səmimi olaraq dinə inanmadıqları və din əxlaqını yaşamadıqları halda, inanırmış və yaşayırmış kimi rəftar edərlər. Möminlər 5 vaxtda namazlarını "huşu" (Allaha qarşı hörmət dolu bir qorxu) içində qılarkən (Muminun surəsi, 1-2), münafiqlərin namazı insanlara "göstəriş" olsun deyə (Maun surəsi, 6) qılmaları da bundandır. Eyni şəkildə münafiqlər, Allah yolunda edilən xərcləri (infaq) də əslində Allah rizası üçün deyil, yenə insanlara nümayiş olsun deyə edərlər:

**Ey iman gətirənlər! Sədəqələrinizi, özünü camaata göstərmək məqsədilə xərcləyən, Allaha və Axirət gününə inanmayan şəxs kimi minnət qoymaqla və əziyyət verməklə puç etməyin. Bunun məsəli üzərində torpaq olan hamar qayanın məsəlinə**

**bənzəyir ki, şiddətli yağış yağıb onu çılpaq hala salmışdır. Onlar qazandıqlarından heç bir şeyə nail olmazlar. Allah kafir xalqı doğru yola yönəltməz.** (Bəqərə surəsi, 264)

**Allah rizası üçün ciddi bir səy**

Bəzi insanlar özlərinə tək hədəf olaraq seçdiyi dünya nemətlərini əldə etmək üçün çox böyük bir səy göstərərlər. Zəngin olmaq, ad-san qazanmaq və ya başqa mənfəətlər üçün əllərindən gələn hər şeyi edirlər. Çox qısa müddət içində tamamilə əllərindən gedəcək olan **"az bir dəyər"** (Tövbə surəsi, 9) uğruna böyük bir yarışa girərlər. Onlarınkından daha böyük bir qiymətə, əldə etdikləriylə müqayisəsi əsla mümkün olmayan ən böyük nemətə, Allahın razılığına və cənnətinə talib olan möminlər də bu hədəfləri üçün ciddi bir səy göstərərlər. Allah, Quranda, mömininin bu xüsusiyyətini belə təsvir edər:

**Kim gəldi-gedər dünyanı istəsə, orada ona – dilədiyimiz kimsəyə istədiyimiz şeyləri dərhal verərik. Sonra isə onu qınanmış və Allahın rəhmətindən qovulmuş halda girəcəyi Cəhənnəmə atarıq. Kim də Axirəti istəsə, mömin olaraq bütün qəlbi ilə ona can atsa, onların səyi məmnuniyyətlə qəbul olunar. (İsra surəsi, 18-19)**

Mömin Allah rizası və axirət üçün "ciddi bir səy göstərərək" çalışar. Tövbə surəsinin 111-ci ayəsində bildirildiyi kimi, mömin malını və canını Allah üçün "satmışdır."

Allaha "malını və canını satmış" olan bir insan, Allah rizası üçün qarşılaşacağı heç bir çətinlikdən təsirlənməyəcəkdir. Allah rizası xaricində heç bir şeyə yönəlməyəcəkdir. Bədəni və sahib olduğu mallar "onun" deyil ki, bu barədə öz nəfsinin eqoist ehtiraslarına tabe olsun. Bədəninin və sahib olduğu hər şeyin sahibi Allahdır, bütün bunları Onun istədiyi şəkildə istifadə edəcək.

Bununla yanaşı, göstərəcəyi səyin həqiqətən ciddi olub-olmadığı da yoxlanılacaqdır. Allah yolunda heç bir şeydən çəkinməməlidir. Çünki münafiqlər də, əgər özləri üçün "bir fayda" görsələr, ətrafda Allah rizasına uyğun olan bir işə - Allahın razılığını deyil, bu "fayda"nı əldə edə bilmək üçün - başlaya bilərlər:

**Əgər səfəriniz gəlir gətirən və yüngül bir yürüş olsaydı, onlar mütləq sənin ardınca gedərdilər. Lakin əziyyətli yol onlara çətin gəldi. Onlar: “Əgər taqətimiz olsaydı, biz də**

**sizinlə bərabər çıxardıq!" – deyə Allaha and içəcəklər. Onlar özlərini həlak edirlər. Çünki Allah onların yalançı olduqlarını bilir. (Tövbə surəsi, 42)**

Bu səbəbdən, mömin olmağın meyarlarından biri, Allah rizasına qarşı daxili bir istək hiss etmək və lazım olduğunda bu yolda fədakarlıq göstərməkdən çəkinməməkdir. Möminlər, "**Biz onları Axirət yurdunu sadiq ürəklə andıqlarına görə seçdik** " (Sad surəsi, 46) Mömin, Allahın rizası ilə yanaşı başqa mənfəətlər güdməz. Allahdan, razılığını, rəhmətini və cənnətini ümid edər, çünki ayədə bildirildiyi üzrə, "**Həm kişilərdən, həm də qadınlardan mömin olaraq yaxşı işlər görənlər Cənnətə girərlər və onlara xurma çərdəyinin qırıntısı qədər haqsızlıq edilməz.** " (Nisa surəsi, 124)

Göründüyü kimi Allahın Quranda təsvir etdiyi mömin modeli son dərəcə açıq və aydındır. Cənnət, Allaha və axirətə "qətiyyətlə" (Loğman surəsi, 4) iman gətirib, sonra da Allah yolunda "ciddi bir səy" göstərənlərin yurdudur. Allaha ancaq "bir ucundan ibadət" edib, Allahın razılığının yanında öz bəsit dünyəvi mənfəətlərini qorumağa çalışanların vəziyyətini isə, Rəbbimiz Quranda belə açıqlayır:

**İnsanlardan eləsi də vardır ki, Allaha şübhə ilə ibadət edir. Əgər ona bir xeyir çatsa, onunla rahatlıq tapar. Yox, əgər başına bir iş gəlsə, üz döndərib küfrə qayıdar. O adam dünyanı da itirər, axirəti də. Həqiqi zərər də elə budur. (Həcc surəsi, 11 )**

Mömin öz maraqlarını nəzərə almadan yalnız Allah rizasını axtararaq Allahın Quran-i Kərimdə bildirdiyi, Peyğəmbərimiz (s.ə.v)-in hökm etdiyi sərhədləri diqqətlə qoruyar, bu mövzuda səbirli və təmkinli davranar. Allahın sərhədlərini qorumaq mövzusunda heç bir şey onu zəifliyə sürükləməz. Hər anında Allahın özündən razı olacağı şəkildə davranmaq üçün dəqiqlik göstərər.

Möminin əsl hədəfi axirətdir. Allah möminə axirətdə sonsuz gözəl bir həyat vəd edir. Rəbbimiz mömin qullarına dünyada da gözəl bir həyat verəcəyini vəd etmişdir, amma bu onun dünyada heç çətinlik və sıxıntı ilə qarşılaşmayacağı mənasını verməz. Qarşılaşacağı çətinliklər isə, onun sınanması və yetkinləşməsi üçündür.

Möminin qarşılaşacağı çətinliklər, əslində kənərdan çətin kimi görünən, lakin tam bir təslimiyyətlə içinə girildiyində, Allahın asanlaşdırdığı hadisələrdir. Məsələn, hz. İbrahim (ə.s) imanından ötəri alova atılmaq istəyəndə müsəlman kimi cavab vermiş, inancından və Allahın əmrlərindən heç bir güzəştə getməyərək atəşə atılmağı gözə almışdır. Alova atılmaq, kənardan baxan və imanın dərinliyini qavramamış biri üçün bir insanın dünyada başına gələ biləcək ən böyük fiziki işgəncədir. Lakin Allahın bu sınağını ən gözəl, ən

təslimiyyətli bir şəkildə qarşılayan hz. İbrahim (ə.s), kənardan çətin görünən bu hadisədən Allahın köməyi ilə heç bir zərər görmədən xilas olmuşdur. Necə ki, Allah, Öz razılığı üçün sahib olduqları hər şeyi ortaya qoyanların heç bir zərər görmədən, maddi və mənəvi qazancla geri döndüklərini ayələrində belə xəbər verir:

**Bəzi adamlar onlara: "Camaat sizə qarşı ordu toplayıbdır, onlardan qorxun!" – dedilər. Bu, onların imanını daha da artırdı və onlar: "Allah bizə yetər. O nə gözəl Qoruyandır!" – dedilər. Onlar özlərinə heç bir pislik toxunmadan, Allahın neməti və mərhəməti sayəsində geri döndülər və Allahın razılığına tabe oldular. Allah böyük lütf sahibidir. O şeytan sadəcə sizi öz dostları ilə qorxudur. Möminsinizsə, onlardan qorxmayın, Məndən qorxun! Küfrə can atanlar səni kədərləndirməsin. Çünki onlar Allaha heç bir zərər yetirə bilməzlər. Allah istəyir ki, onlara axirətdə heç bir şey nəsib etməsin. Onlar üçün böyük bir əzab vardır. Doğrudan da, imanı əldən verib küfrü alanlar Allaha heç bir zərər yetirə bilməzlər. Onları ağrılı-acılı bir əzab gözləyir.** ( Al-i İmran surəsi, 173-177)

Nəticədə Allahın razılığını axtaran və güdən bir mömin üçün heç bir çətinlik, sıxıntı və kədər yoxdur. Yalnız, Allahın dünyada bir imtahan olaraq yaratdığı və möminin təvəkkül, səbir və təslimiyyətini sınadığı hadisələr vardır. Bunlar, kənardan baxıldığında çətinlik və sıxıntı kimi görünən, içinə girdiyində isə Allahın mütləq bir rəhmətiylə qarşılaşılan hadisələrdir. Allah Quranda, mömin qullarına daşıya biləcəklərindən çox yük yükləməyəcəyini də bildirmişdir. Allah Özünə gərəyi kimi qulluq edən möminlər üçün hər iki həyatda da gözəllik olduğunu belə bildirmişdir:

**Müttəqilərə: "Allah nə nazil etmişdir?" – deyildikdə, onlar: "Xeyir nazil etmişdir!" – deyərlər. Bu dünyada xeyirli işlər görənlər üçün gözəl mükafat hazırlanmışdır. Axirət yurdu isə daha xeyirlidir. Müttəqilərin yurdu necə də gözəldir! Onlar ağacları altından çaylar axan Ədn bağlarına girəcəklər. Orada onların ürəklərinin istədikləri hər şey vardır. Allah müttəqiləri belə mükafatlandırır.** (Nəhl surəsi, 30-31)

Allah rizasını ummaqda zəiflik göstərən, Allaha tam bir təslimiyyət göstərməyən, nəfsini ön planda tutan kəslərin başına isə, bu səhv mövqelərini dəyişdirib düzəltmədikləri təqdirdə, Allahın bir xəbərdarlığı olaraq əzab, çətinlik və sıxıntı gəlir. Möminlər səhv etdiklərində, özlərinə edilən xəbərdarlıqlardan dərs alıb, tövbə edər və davranışlarını düzəldərlər. İnkarçılar isə, dünyada yaşadıqları müddət boyunca Allahın özlərini uğratdığı çətinlik və sıxıntılardan, bəlalardan ibrət almaz və axirətdəki böyük sonsuz əzaba layiq olacaq bir vəziyyətə gəlirlər.

## Nəfsini tanımaq

Allahın Quranda, insan haqqında verdiyi əhəmiyyətli məlumatlardan biri də onun "nəfs sahibi" olduğudur. Ərəb dilində "insanın özü" mənasını verən nəfs, mənlik sözüylə də təyin oluna bilər.
Rəbbimiz Quranda, insan nəfsinin iki tərəfi olduğunu bildirmişdir. Buna görə insanın içində pisliyi əmr edən bir tərəf və o pis əməldən çəkinməyi əmr edən digər bir tərəf var. Bu mövzu ilə əlaqədar ayələr belədir:

**And olsun nəfsə və onu yaradıb kamilləşdirənə, ona günahları və Allahdan qorxmağı təlqin edənə! Nəfsini günahdan təmizləyən uğur qazanmışdır. Onu günaha batıran isə ziyana uğramışdır. (Şəms surəsi, 7-10)**

Ayələrdən də aydın olduğu kimi, pis əməl hər insanın nəfsində vardır. Ancaq hər insan bu pis əməllərdən çəkinməyi və qorunmağı da bilir. Nəfsini pis əməllərdən təmizləyən xilas olacaq. Möminlər nəfslərindəki pis əməllərə təslim olmaz, Allahın ilham etdiyi şəkildə ondan çəkinirlər. Hz. Yusif (ə.s)-ın söylədiyi bir sözü xəbər verən, "Mən özümə bəraət qazandırmıram. Çünki, Rəbbimin rəhm etdiyi kəs istisna olmaqla, nəfs adama pis işləri əmr edər…" (Yusif surəsi, 53) ayəsi, möminlərin düşünmə formasini da göstərir.

Nəfs "var gücüylə pisliyi əmr edən" olduğuna görə, mömin həmişə nəfsinə qarşı oyanıq olmaq məcburiyyətindədir. Nəfs davamlı olaraq ona Allahın razılığından basqa secimlerde təqdim edir və bu secimleri bəzəkli göstərər. Lakin mömin, Allaha olan səmimi sevgisi və Allah qorxusu sayəsində, nəfsin bu "yoldan azdırıcı" xüsusiyyətinə aldanmaz. Hemise Allahın razılığına uyğun bir həyat yaşamaq üçün doğrulara yönələr.

## Şirkdən çəkinmək

Şirk, qısa təriflə desək, Allahla yanaşı, Ondan başqa bəzi varlıqları da İlah qəbul etməkdir. (Allahı tənzih edirik). Bu tərifdən sonra, bəzi insanlar, əslində şirk içində olmalarına baxmayaraq "biz Allahdan başqa heç bir tanrı tanımırıq ki" deyə bilər. Bu, onların "şirk" in nə olduğunu anlamamış olduqlarından qaynaqlanır. Onsuz da, Allahın Quranda bildirdiyinə görə, Allaha ortaq qoşub şirk içində olanların bir hissəsi, bu vəziyyətlərini qəbul etmirlər. Allah bu insanların vəziyyətini xəbər verir:

**O gün onların hamısını bir yerə toplayacaq, sonra isə şərik qoşanlara deyəcəyik: "İddia etdiyiniz şərikləriniz haradadır?" Sonra onların: "Allaha – Rəbbimizə and olsun ki, biz müşrik olmamışdıq!" – demələrindən başqa bir bəhanələri qalmayacaq. (Ənam surəsi, 22-23)**

Bu səbəblə, kimsə bu mövzuda özündən əmin olmamalı, şirk içində olmaqdan Allaha sığınmalıdır. Çünki şirk, çox böyük bir günahdır. Allah digər günah və səhvləri bağışlayar, amma şirki əsla bağışlamayacağını Quranda belə bildirmişdir:

**Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını bağışlamaz, bundan başqa daha kiçik günahları isə istədiyi kimsəyə bağışlayar. Allaha şərik qoşan kəs iftira atmaqla böyük bir günah etmiş olur. (Nisa surəsi, 48)**

Bu qədər böyük bir "günah və böhtan" olan şirk, insanın, Allaha aid olan xüsusiyyətləri öz zehnində başqa varlıqlara verməsiylə başlayar. Halbuki, varlıqlarda olan xüsusiyyətlər (güc, gözəllik, zəka və s.) onlara "aid" deyil; Allah bunları onlara, müvəqqəti və müəyyən bir müddət üçün vermişdir. Bu xüsusiyyətləri, bu varlıqlara "aid" saymaq, onları da Allah kimi varlığı özündən olan bir ilah saymaq deməkdir. Bu isə, bəhsi keçən varlıqları Allahın ortaqları sanıb, Allaha şərik qoşmaqla təyin olunar və çox böyük bir cəhalətdir. Allah, Zatının bir və tək olma xüsusiyyətini Quranda belə xəbər verir:

**De: "O Allah Təkdir!  Allah Möhtac deyildir. O, nə doğub, nə doğulub. Onun bənzəri də yoxdur. (İxlas surəsi, 1-4 )**

Yuxarıdakı ayələrdən də göründüyü kimi, Allah heç bir şeyə möhtac deyil, amma hər şey Ona möhtacdır. Və heç bir şey Onun tayı deyil. Bu həqiqət rədd edilib, bəzi varlıqların Allaha möhtac olmadığı düşünüldüyü anda isə "şirk" başlayır. O zaman, hər şeyin Allahın idarəsində olduğu unudular, Ona möhtac olmayan bəzi varlıqların mövcud olduğu və bunların Ondan müstəqil olaraq hərəkət edə bildiyi kimi həqiqətdən kənar və azğın bir inanc doğular. Belə varlıqların olduğu zənn edildikdə, Allahdan başqa bir də onlardan kömək istənilməyə, onların razılığı axtarılmağa, onların qaydaları qəbul edilməyə başlanar.

Halbuki, Allaha şirk qoşmayan möminlər, bütün gücün Onun əlində olduğunu bildiklərindən yalnız Ona yönələrlər. Allah möminlərin söylədiklərini Quranda belə xəbər vermişdir:

**Biz yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik (Fatihə surəsi, 4)**

Müşriklər isə əslində özlərinə köməyə güc yetirməyəcək varlıqlara yönəlirlər. Çünki öz ağıllarına görə ilah olaraq qəbul etdikləri də özləri kimi aciz qullardır. Ayələrdə Rəbbimiz belə buyurub:

**Onlar heç bir şey yaratmayan, özləri xəlq edilmiş olan şeyləri Allaha şərik qoşurlar? Bütlər nə onlara yardım edə bilər, nə də özlərinə kömək edə bilərlər. Siz onları doğru yola çağırsanız, sizin ardınızca gəlməzlər. Onları çağırsanız da, sussanız da sizin üçün fərqi yoxdur. Allahdan savayı çağırdıqlarınız da sizin kimi qullardır. Əgər doğru deyirsinizsə, çağırın onları, sizə cavab versinlər. (Əraf surəsi, 191-194)**

Bu səbəbdən şirk həm böyük bir böhtan, həm böyük bir aldanma, həm də böyük bir ağılsızlıqdır. Ayələrdə şirk qoşanların nə qədər böyük bir ağılsızlıq içində olduqlarını, bütün kainatın sahibi olan Rəbbimiz belə bildirir:

**Ey insanlar! Sizə bir məsəl çəkilir. Onu dinləyin. Şübhəsiz ki, Allahdan başqa ibadət etdikləriniz bir milçək belə yarada bilməzlər, hətta bunun üçün bir yerə yığışsalar belə. Əgər milçək onlardan bir şey götürüb aparsa, bunu ondan geri ala bilməzlər. Bunu etmək istəyən də aciz qalar, istənilən də! Onlar Allahı lazımınca qiymətləndirmədilər. Şübhəsiz ki, Allah Qüvvətlidir, Qüdrətlidir! (Həcc surəsi , 73-74)**

Şirk, fərqli şəkillərdə ortaya çıxar. Allahdan başqa varlıqları ilah olaraq qəbul etmə azğınlığına düşüldüyü üçün, onların razılığı axtarılmağa başlanar. Onlardan mədət ümid edilər və onların hökmləri qəbul edilər. Beləcə insan, özünü öz əliylə milyonlarla xəyali ilahın əmri altına salmış olar. Eynilə özü kimi aciz varlıqlardan mədət umar. Halbuki, şirk qoşan insan, böyük bir çıxılmaz və "zülm" içindədir. Allah bu həqiqəti bir Quran ayəsində belə xəbər vermişdir:

"**... Həqiqətən, Allaha şərik qoşmaq böyük zülmdür." (Loğman surəsi, 13)**

Amma bunu da qeyd etmək lazımdır ki, bu cür insanlar, öz-özünə zülm edir. Çünki ayədə bildirildiyi kimi, "Şübhəsiz ki, Allah, insanlara heç bir şeylə zülm etməz. Ancaq insanlar, öz nəfslərinə zülm edirlər." (Yunis surəsi, 44)

**Allah rizasının ən çoxunu axtarmaq**

Mömin, şirkdən, Allahdan başqa xəyali ilahlardan mədət ummaqdan, onların razılığını axtarmaqdan və onların əmri altına girməkdən təmizlənmişdir. O, yalnız Allaha ibadət edər. Allahın razılığını axtarar. Bunu, daha əvvəl də bildirdiyimiz kimi, "Allah yolunda ciddi bir səy" göstərərək edəcəkdir.

Allah yolunda "ciddi bir səy" göstərməyin yolu, Allah rizasının ən çoxunu axtarmaqdadır. Mömin, qarşısında olan bir neçə seçim birdən gördüyündə, ona Allahın razılığını ən çox qazandıracağını ümid etdiyini seçməlidir.

Allah rizasının ən çoxunu axtarmağı qısaca belə təyin edə bilərik:

- Mömin həyatının hamısı "halal dairəsi" içində keçməlidir. Haramlar açıq şəkildə bildirilmişdir və olduqca az saydadır. Bu müəyyən haramların xaricində, hər hansı bir hərəkət və rəftarlar bəhsi keçən mövzuda halal dairəsi içindədir.

- Bununla yanaşı möminə düşən, Allahın halal etdiyi meyarlar içində öz ağıl və "bəsirət" ini istifadə edərək, Allahın razılığının ən çoxunu axtarmağa yönəlməkdir.

Bununla əlaqədar olaraq "infaq" (Allah yolunda xərcləmək) mövzusu yaxşı bir nümunə ola bilər. Mömin, "malını və canını" Allaha satmışdır. Əlindəki imkanları Onun razılığına uyğun bir şəkildə qiymətləndirməlidir. Amma bunu edərkən qarşısına dəyişik seçimlər çıxa bilər. Məsələn, əlində külli miqdarda pul olduğunu düşünək. Bununla özünə yeni bir geyim ala bilər. Bu halal və çox qanuni bir hərəkətdir; üstünə-başına baxması, təmiz və gözəl bir görünüşdə olması Allahın razılığına uyğundur. Amma bu pulu istifadə edə və Allahın razılığını daha da çox qazanmağa vəsilə ola biləcək başqa bir yer ola bilər. Məsələn, bu pulu özündən daha çox ehtiyacı olan bir kasıba verməklə, Allahın razılığı daha çox ola bilər. Bu, yaşadığı mühitə və şərtlərə görə insanın öz vicdanıyla, vacib olanı müəyyən edə biləcəyi bir vəziyyətdir.

Bir başqa nümunə də verə bilərik: Mömin "yaxşılığı əmr edib, pis əməldən məhrum etməklə", Allahın dinini izah etməklə, yer üzündəki qəddarlığa qarşı fikri bir mübarizə içinə girməklə məsuldur. Allahın razılığını, bu böyük məsuliyyəti qəbul etməklə qazana bilər. Bu məsuliyyət hər zaman üçün bəzi vacib xidmətlər ortaya çıxarar. Bu cür böyük bir məsuliyyət tələb edən bir çox iş varkən, Allahın halal saydığı bir başqa işi daha vacib

saymaq səhv olacaq. Məsələn, kişi ailəsinə baxmaqla məsuldur. Onların təhlükəsizliyini, dolanışığını təmin etmə vəzifəsi ona verilmişdir. Amma bunu bəhanə edərək digər insanlara yaxşılığı əmr edib, pis əməldən məhrum etmə məsuliyyətini üzərinə almaması əlbəttə ki, möminə yaraşan bir rəftar olmayacaq.

Əslində bir az düşündüyümüzdə dəyəri az olan şeyi seçim etməkdə "nəfs"in təsirli olduğunu görərik. Allah Qatında dəyəri az olan şeyi çox olana seçim etmək, insanın nəfsinə də bir "pay" ayırmasından qaynaqlanar. Halbuki, bir mövzuda edilməsi lazım olan, nəfsinə ən kiçik pay ayırmadan, yüz faiz Allahın razılığına diqqət etməkdir. Bir işdə 99% Allahın razılığı, bir faiz də nəfsinin istəkləri varsa, o 99% də Allah qatında qəbul edilməyə bilər. Çünki bu, insanın, nəfsini Allaha şirk qoşması deməkdir. Şirkin isə 1%-i belə geri qalan əməli etibarsız etmək üçün kifayət edər. Bir işdə, Allahla yanaşı başqa bir varlığa, bir kimsəyə pay ayıranlar vəziyyətini, Rəbbimiz belə bir örnəklə xəbər vermişdir:

**Onlar Allah üçün Onun yaratdığı əkindən və mal-qaradan pay ayırıb öz batil iddialarına əsasən: “Bu, Allah üçündür, bu da şərik qoşduqlarımız bütlər üçündür” – deyirlər. Şərikləri üçün ayırdıqları pay Allaha çatmır, Allah üçün ayırdıqları pay isə şəriklərinə çatır. Onların verdikləri hökm necə də pisdir! (Ənam surəsi, 136)**

Öz evi, ailəsi təhlükədəykən canı bahasına bunları müdafiə edən bir insan, mövzu digər möminlərə zülm, təzyiq və böhtan olduğunda yerində oturub saymazyana başqa işlərlə məşğul olursa, burada Allah rizasının olduğundan söz etmək çox çətindir. Belə bir rəftar, insanın, nəfsinin nəzərdə tutduğu şəkildə davrandığını, nəfsinə tabe olduğunu göstərir ki, bu İslamın təməli olan "yalnız Allaha qulluq etmək" məqsədinə tamamilə ziddir. Həmçinin, Allah Quranda nəfsin arzularına görə hərəkət etməyi, Özünə şirk qoşmaq olaraq müəyyən etmişdir:

**Nəfsinin istəyini ilahiləşdirən kimsəni gördünmü? Sən ona vəkillikmi edəcəksən? (Furqan surəsi, 43)**

Mömin isə, bütün varlığını, malını, canını, həyatını və ölümünü, qısacası hər şeyini Allaha həsr etmişdir. Allah, iman edən insanların bu üstün xüsusiyyətini Quranda belə xəbər verir:

**De ki: "Şübhəsiz ki, mənim namazım da, ibadətim də, həyatım və ölümüm də aləmlərin Rəbbi olan Allahındır." (Ənam surəsi, 162)**

Quranda Allahın rizasının ən çoxu axtarılması ilə əlaqədar olaraq izah edilən hadisələrdən biri, möminlərin Peyğəmbərimiz (s.ə.v.) dövründəki bir döyüşdə göstərdikləri münasibətdir. O dövrdə möminlərdən bəziləri qarşı-qarşıya olduqları iki ayrı düşmən birliyindən daha gücsüz olanla döyüşmək istəmişlər. Halbuki, Allahın razılığı, ən çətinə talib olub, düşmənin güclüsüylə döyüşməyi tələb edirdi. Allah keçmişdə yaşanmış bu hadisələri ayələrdə belə xəbər verir:

**O vaxt Allah sizə, iki dəstədən birinin (karvanın və yaxud kafirlərin qoşununun) sizin olduğunu vəd edirdi. Siz silahsız dəstənin sizin olmasını arzulayırdınız. Allah isə Öz kəlmələri ilə haqqı reallaşdırmaq və kafirlərin kökünü kəsmək istəyirdi. O bununla günahkarların xoşuna gəlməsə də, haqqı reallaşdırmaq və batili puç etmək istəyirdi. (Ənfal surəsi, 7-8)**

Nəticədə Allah, möminləri güclü olan birliklə qarşılaşdırdı. Möminləri, Öz rizasının ən çoxuna yönəltmiş oldu. Və Allahın köməyiylə möminlər qalib gəldilər.

Yuxarıda bəhs etdiyimiz nümunə keçmişdə, Peyğəmbərimiz (s.ə.v) dövründə yaşamış möminlərin, o dövrün şərtləri içində qarşılaşdıqları bir hadisədir. Amma hər dövrdə müsəlmanlar fərqli hadisələrlə sınana bilərlər. Məsələn, indiki vaxtda müsəlmanların, Quranı və yaradılışı inkar edənlərə, cəmiyyət içində əxlaqsızlıqların yayılması üçün çalışanlara qarşı fikri bir mübarizə aparmaları lazımdır. Möminlər hər zaman üçün məsuliyyətini daşıdıqları bu fikri mübarizə üçün nəyin "ən xeyirli" olduğunu təsbit edib, onu tətbiq etməlidirlər. Çünki belə bir əmanəti daşıyacaq gücə sahib olub, sırf nəfsi üçün vacib olmayan işlərlə məşğul olmaq Allahın razılığından üz çevirmək mənasını verər ki, hər möminin belə bir mövqeyə düşməkdən şiddətlə çəkinməsi şərtdir.

Möminin vicdanı onsuz da belə bir şeyi qəbul etməz. O, Allahın seçib iman verdiyi bir adamdır, yer üzündə sülh və dinclik mühitinin olması, Allahın dininin yaşanması ona əmanət edilmişdir. Zalımların əzib, zülm etdiyi və "... Ey Rəbbimiz, bizi əhalisi zalım olan bu şəhərdən çıxart, bizə Öz tərəfindən bir vəli (qoruyucu sahib) göndər, bizə Öz tərəfindən bir kömək edən göndər ..." (Nisa surəsi, 75) deyən kişilər, qadınlar və uşaqlardan zəif buraxılmışlar üçün səy göstərməklə məsuldur.

Allahın razılığının ən çoxu yalnız fikri mübarizə mövzusunda etibarlı deyil. Mömin, həyatı boyunca etdiyi bütün ibadətlərdə, gündəlik həyatında qarşısına çıxan kiçik-böyük bütün hadisələrdə bu dünyagörüşünü göz qarşısında saxlamaq məcburiyyətindədir.

Bu arada bunu xatırlatmaq lazımdır: Əslində "Allah rizasının ən çoxu" ifadəsini, mövzunu açıqlamaq üçün istifadə edirik. Allah rizasının ən çoxundan üz çevirib, ikinci dərəcəli bir işlə maraqlanmaq, əslində Allahın razılığına ziddir. Bu səbəbdən, onsuz da Allahın razılığının ancaq ən çoxu, Allahın razı olduğudur. Allahın daha az razı olması kimi bir şey yoxdur.

Allahın razılığının ən çoxunu axtarmayıb, azıyla qane olmaqsa, əslində insanın axirətə istiqamətli səhv bir dünyagörüşü daşımasından qaynaqlanar. Özünü qəti olaraq "cənnətə layiq" saymasından doğar. Halbuki, heç bir insan özünü qeyd-şərtsiz "cənnətə layiq" olaraq görəcək vəziyyətdə deyil. Quranda Allah Peyğəmbərimiz (s.ə.v.)-ə "... əgər Allah istəsə, sənin də qəlbinə möhür vurar ..." (Şura surəsi, 24) xəbərdarlığını etmişdi. Vəziyyət belə ikən kimsənin özünü təmizə çıxaracaq bir halı olmadığı ortadadır.

Onsuz da Allahın Quranda təsvir etdiyi səmimi bir mömin, özünü əsla cənnətə qəti olaraq layiq olduğunu görməz, belə səhv bir düşüncəyə qapılmaz. Mömінin xüsusiyyətlərindən biri, Allaha "qorxu və ümid" (Əraf surəsi, 56) bəsləyərək dua etməkdir.

Həqiqi iman sahibi olmayan kəslər isə, Allahdan gərəyi kimi qorxmadıqları və yaxşı işlər etdiklərini sandıqları üçün, özlərinin qəti olaraq cənnətə gedəcəklərini düşünürlər. Allahın bağışlayıcılığını, "necə olsa bağışlanacağıq" kimi səhv bir məntiq çıxarmaq üçün istifadə edərlər. Bu, Allahdan gərəyi kimi qorxub çəkinməyən kəslərin mövqeyidir. Allah bu kəslərin vəziyyətini bir ayəsində belə bildirmişdir:

**Onlardan sonra Kitaba varis olan xələflər gəldilər. Onlar bu fani dünya malını alıb: “Biz bağışlanacağıq!” – deyirdilər. Onlara buna bənzər mənfəətlər yenə də gəlsəydi, onu da alardılar. Məgər Allah barəsində haqdan başqa bir şey söyləməyəcəklərinə dair onlardan Kitabda yazılmış əhd alınmamışdımı? Halbuki onlar Kitabda olanları oxuyub öyrənmişdilər. Axirət yurdu müttəqilər üçün daha xeyirlidir. Məgər anlamırsınız? (Əraf surəsi, 169)**

Bundan əlavə də, dünyada özlərinə geniş imkanlar verilməsinə aldanaraq, Allaha könüldən iman edib saleh əməllərdə olmadıqları halda, Allahın özlərini sevdiyi nəticəsini çıxaranlar və buradan hərəkətlə - varlığını qəti şəkildə qəbul etməsələr də - cənnətdə qarşılanacaqlarını zənn edənlər var. Bu kəslərlə əlaqədar Allahın Quranda verdiyi nümunələrdən biri belədir:

**Onlara iki kişinin əhvalatını misal çək. Bunların birinə iki üzüm bağı verib onları xurmalıqlarla əhatə etdik və aralarında əkin saldıq. Hər iki bağ öz barını verdi və bu bardan heç bir şey əskilmədi. Biz də onların arasından bir çay axıtdıq. Onun başqa sərvəti də var idi. O öz mömin yoldaşı ilə söhbət edərkən ona: "Mən sərvətcə səndən daha zəngin və adamlarıma görə səndən daha qüvvətliyəm!" – dedi.( O özünə zülm edərək bağına daxil olub dedi: "Bunun nə vaxtsa yox ola biləcəyini düşünmürəm. O Saatın gələcəyini də zənn etmirəm. Rəbbimin yanına qaytarılmalı olsam, sözsüz ki, bundan daha firavan bir həyat qismətim olacaq!" (Kəhf surəsi, 32-36)**

Mömin isə, yuxarıdakı zehniyyətdəki insanların əksinə "iman etdikdən sonra doğru yoldan çıxmaq"dan qorxar. Quranda möminlərin bununla əlaqədar duasını Rəbbimiz belə bildirmişdir:

"Ey Rəbbimiz, bizi doğru yola yönəltdikdən sonra qəlbimizi azdırma və Qatından bizə bir rəhmət bağışla. Şübhəsiz, ən çox bağışlayıcı olan Sənsən." (Al-i İmran surəsi, 8)

Ancaq bunu da qeyd etmək lazımdır ki, bu qorxu mömin üçün narahatlıq və ya rahatsızlıq meydana gətirəcək bir qorxu deyil. Əksinə, Allah qorxusu mömini hərəkətə keçirən, cənnətə layiq bir qul olma mövzusunda böyük bir şövq qazandıran, dünya həyatını ən gözəl şəkildə qiymətləndirməsini təmin edən bir duyğudur.

Mömin müvəqqəti və qısa bir yurd olan dünyada Allahın razılığını qazanmaq hədəfindədir. Tək düşüncəsi qarşı-qarşıya olduğu böyük hadisədir: Qəti olaraq bir gün öləcək və Allahın hüzurunda hesab verəcək. Bu hesab onu əbədi məhvə ya da qurtuluşa aparacaq. Bu cür böyük bir hadisə ilə qarşı-qarşıyaykən başqa işlər arxasınca qaçmaq, ya da laqeyd davranmaq əlbəttə, məntiqə uyğun deyil.

Mömin, qurtuluşu üçün "Allahın rizasının ən çoxu"nu axtarmaqla məsuldur. Allahın razılığının ən çoxunu axtarmamaq, qarşı-qarşıya olunan təhlükənin də fərqində olmamaq deməkdir. Cəhənnəm və Allah Qatında alçaldılma təhlükəsindən xilas olmaq üçün əlbəttə, insanın əlindən gələnin ən çoxunu etmək üçün səy göstərməsi lazımdır.

Dünyada qarşılaşıla biləcək təhlükələrə göstərəcəyimiz rəftar və səylə əlaqədar bir neçə nümunə, Allah rizasının ən çoxunu axtarmanın necə olacağının daha yaxşı başa düşülməsinə kömək edəcək:

- Metrlərlə yüksəklikdəki nəhəng bir su basqınına səbəb olan sellə qarşı-qarşıya qaldığımızda və suların böyük bir sürətlə yüksəldiyini gördüyümüzdə, xilas olmaq üçün,

qaçdığımız on mərtəbəli binanın ən üst qatına mı çıxarıq, yoxsa beşinci mərtəbədə dayanıb "hər halda bu qədəri kafi olar"mı deyirik?

- Mənzilin ən üst qatına pullu bir liftlə çıxıldığını və liftin bir daha səfər etməyəcəyini fərz edək. Cibimizdə də tam ən üst qata çıxacaq qədər pul var. Bu vəziyyətdə ən üst qata çıxmaq üçün cibimizdəki bütün pulu verməyə bilərikmi? Yoxsa selin çatma təhlükəsi olan bir başqa ara qata çıxmaqlamı kifayətlənərik?

- Seldən xilas olmaq üçün gizləndiyimiz mənzilin altıncı qatında bir əyləncə təşkil olduğunu düşünək. Belə bir vəziyyətdə əyləncəyə qatılıb, altıncı qatın yüksəkliyiyləmi kifayətlənərik, yoxsa gözümüz heç bir şeyi görmədən ən üst qata mı çıxarıq?

- Bir başqa nümunə olaraq; bir yaxınımızın infarkt keçirdiyini və ya başqa bir səbəblə xəstəxanaya yetişdirilməsi lazım olduğunu düşünək. Bu vəziyyətdə xəstəxanaya çatmaq üçün avtomobili məqbul ola biləcək ən yüksək sürətlə mi sürərik, yoxsa "bu qədəri kafi, bir az daha azalt"mı deyirik?

Verdiyimiz nümunələrdən aydın olacağı kimi insan bir təhlükə ilə qarşı- qarşıya qaldığında dərhal hərəkətə keçir, əlindəki bütün imkanları təhlükədən xilas olmaq üçün səfərbər edə bilir. Cəhənnəm isə insan üçün ən böyük təhlükədir. Əlbəttə ki, Allah rizasının ən çoxunu axtaran insanın ən əhəmiyyətli məqsədlərindən biri bu təhlükədən uzaq qalma istəyidir. İndi məhşər günü hər kəsin mütləq ətrafında toplanacağı bildirilən cəhənnəmin kənarında olduğunuzu, cəhənnəmi bütün dəhşəti ilə gördüyünüzü düşünün ... Belə bir vəziyyətdə bəzi seçimlərlə qarşılaşsanız, heç tərəddüd etmədən Allahın razılığının ən çoxunu seçməzsinizmi? Cəhənnəmin yanına gəldikdən sonra belə bir seçki imkanı qalmayacağına, yalnız edilənlərin hesabı veriləcəyinə görə, indidən eyni məntiqlə hərəkət etmək lazımdır. Necə ki, mömin hər an axirət həyatına keçəcəkmiş kimi, cəhənnəmin yaxınlığını düşünərək hərəkət edər. Çünki Allah, axirətdəki peşmanlığın fayda gətirməyəcəyini Quranda bir çox ayəsiylə ifadə etmişdir. Bu mövzudakı ayələrdən biri belədir:

**Onlar orada fəryad qoparıb yalvaracaqlar: “Ey Rəbbimiz! Bizi buradan çıxart ki, əvvəllər etdiyimiz əməlləri deyil, yaxşı əməllər edək”. Onlara deyiləcək: “Məgər orada sizə düşünəcək kimsənin düşünə biləcəyi qədər uzun ömür vermədikmi? Sizə qorxudub xəbərdar edən də gəlmişdi. Elə isə dadın əzabı! Zalımlara kömək edən olmaz”. (Fatir surəsi, 37)**

Digər tərəfdən insan, təhlükədən uzaqlaşmaq üçün bu qədər çalışdığı kimi, neməti əldə etmək üçün də səy göstərməlidir. Cənnətin azına razı olmaq da ağıllı bir davranış deyil. Qızıl dolu bir adadan gəmiylə ayrılarkən, imkanınız olsa götürə biləcəyinizin hamısını götürməzsinizmi? Mömin də, axirətə getdiyində "kaş ki, bunu da etsəydim", "bu savabı da qazansaydım" deyəcək vəziyyətdə olmamalıdır. Bunun üçün dünyadaykən bütün imkanlarını istifadə edərək, Allah rizasının ən çoxunu seçməlidir.

İnkar edənlər, "az bir faydalanma" dan (Al-i İmran surəsi, 197) başqa bir şey olmayan dünyanı əldə etmək üçün əllərindən gələnin "ən çoxunu" edərlər. Sonu hüsranla bitəcək olan bu "az bir faydalanma" ilə yanaşı, möminlər üçün Allahın razılığı, rəhməti və cənnəti vardır. Bunlara talib olan mömінin etməsi lazım olan da əlindən gələnin "ən çoxunu" etməkdir.

**Allah rizasının açarı: Vicdan**

Mömin, həyatının hər mərhələsində, qarşısındakı seçimlər arasından Allah rizasının ən çoxunu seçmək məcburiyətindədir. Allah rizasının ən çox hansı seçimdə olduğunu təsbit etmək üçün əlində olan ən böyük meyar vicdanıdır.

Möminləri digər insanlardan ayıran fərqlərin ən əhəmiyyətlilərindən biri, möminlərin vicdanlarına, inkarçıların isə nəfslərinin əmr etdiyi pis əməllərə tabe olmalarıdır. Bu səbəbdən mömінin təbii halı, vicdanı ilə düşündüyü halıdır.

Amma bu, nəfsin mömінin üzərində təsiri olmadığı mənasını verməz. Ayədə hz. Yusif (ə.s)-ın söylədiyinin xəbər verildiyi sözdə olduğu kimi, " ... həqiqətən nəfs, Rəbbimin rəhmi xaricində- var gücüylə pisliyi əmr edəndir ... " (Yusif surəsi, 53) Və möminə də Allahın razılığına uyğun olmayan seçimləri əmr edəcəkdir.

Məhz mömin, nəfsin bu oyunlarından vicdanı ilə xilas olar. Mömінin bir seçki vəziyyətində ümumiyyətlə ilk düşünüb - yönəldiyi seçim, Allahın rizasının ən çoxudur. Bunun ardınca nəfs dövrəyə girərək digər seçimləri bəzəkli göstərməyə, bəzi "təvil"lərlə (bəhanə tərzi şərhlərlə) bu alternativləri qanuniləşdirməyə çalışacaq. Mömin, bu şərhlərə diqqət etmədən, vicdanının ona göstərdiyi ilk və ən doğru olanın tətbiq etməlidir.

**Allah üçün sevmək**

**İman gətirib yaxşı işlər görən qullarına Allahın müjdə verdiyi nemət budur. De: "Mən sizdən bunun əvəzində qohumluq sevgisindən başqa bir şey istəmirəm". Kim bir yaxşılıq etsə, onun savabını artırarıq. Həqiqətən, Allah Bağışlayandır, şükrün əvəzini verəndir (Şura surəsi, 23)**

Möminin həyatının hamısı Allaha həsr edilmişdir. Allah üçün yaşayar, Allah üçün çalışar və Allah üçün sevər.

"Allah üçün sevmə" nin nə olduğu, İslamı həqiqi mənasıyla tanımayan biri üçün ilk əvvəl başa düşülməyə bilər. Həyatı boyunca Allaha yad olmuş, Onu tanımamış bir insan, sevgisini Allaha yönəltməyi də bilməyəcək.

Amma Allahı tanıyan və Onun, özü üzərindəki böyük rəhmətini görən, Onun sayəsində var olduğunu, Allahın rəhməti sayəsində yaşadığını və sevib - xoşlandığı hər şeyin Allahdan gəldiyini fərq edən mömin, əlbəttə Allah sevgisinin və Allah üçün sevməyin üstünlüyünə çatar. Quranda, möminlər ilə digər insanlar arasında sevgi baxımdan mövcud olan böyük fərqi Allah belə bildirmişdir:

**İnsanlardan elələri də vardır ki, Allahdan qeyrilərini Ona tay tutur, onları da Allahı sevdikləri kimi sevirlər. İman gətirənlərin isə Allaha olan sevgisi daha güclüdür…(Bəqərə surəsi, 165)**

Ayədə görüldüyü kimi, Allaha ortaq qoşub, hamısı Ona aid olan xüsusiyyətləri öz zehinlərində başqa varlıqlara verənlər, bu varlıqları Allahı sevdiyi kimi sevirlər. Bu sevgi, Allaha şərik qoşma (şirk) üzərinə qurulan bir sevgidir.

Var olan hər şeyin Allaha aid olduğunu və Ondan gəldiyini bilən möminlər isə ən çox Allahı sevərlər. Möminlərin, Allahı bir və tək olaraq tanıdıqlarından doğan bu böyük fərq, onların sevgi anlayışını digər insanlardan tamamilə fərqli edər. Quranda ortaq qoşanların, Allahın "bir və tək" olaraq xatırlanmasına dözə bilmədiklərini Rəbbimiz belə bildirir:

**.... Sən Quranda Rəbbinin Tək Allah olduğunu yada saldığın zaman onlar bu dəvətə nifrət edərək arxalarını çevirib gedərlər. (İsra surəsi, 46)**

Ancaq bunu da ifadə etməliyik ki, şərik qoşanlar, yanında öz bütləri varkən Allahın xatırlanmasından narahat olmaya bilərlər. Məsələn, "Həm müsəlmanıq, həm də

həyatımızı yaşayırıq" məntiqini sevərək qəbul edərlər. Mömininin fərqinə vardığı həqiqət isə budur:

- Heç bir şey (insan, maddə, hadisə və s.) özünə aid bir gözəlliyə sahib deyil. Bütün hər şeyi yaradan Allahdır və onlara sahib olduqları xüsusiyyətləri verən də Odur. Bir insan, məsələn, öz üzünü özü hazırlayıb meydana gətirmədiyinə görə, o üzdəki gözəllik Allaha aid bir gözəllikdir.

- Allah bu gözəlliyi, yoxdan var etdiyi insana müvəqqəti bir müddət üçün (çünki o insan qısa müddətdə yaşlanacaq və öləcək) vermişdir. Axirətdə bu gözəlliyi yenidən və daha da mükəmməl bir şəkildə yaratma gücünə də yalnız Allah malikdir.

- Eynilə insan kimi, seviləcək bütün varlıqlar da Allahın yaratdığı və "sevimli" qıldığı canlılardır. Rəbbimiz, gözəlliyin həqiqi sahibinin Özü olduğunu xatırlatmaq üçün də, bu varlıqları, ölüm və qiyamətlə yox edəcək. Yenidən yaradılış isə axirətdədir.

Vəziyyət belə ikən mömin, qarşılaşdığı bütün gözəllikləri, bunların Allaha aid olduğunu və "əsli"nin axirətdə olduğunu bilərək sevər. Bu səbəbdən əsl sevgisi, sevdiyi hər şeyi ona verən və onların həqiqi sahibi olan Allaha istiqamətlidir.

Mömininin sahib olduğu və Allaha iman üzərinə qurulu olan bu sevginin tam tərsi mömin olmayanlar malikdir. Onların sevgisi, Allaha şərik qoşma (şirk) təməli üzərinə quruludur. Allah Quranda hz. İbrahim (ə.s)-ın söylədiyini xəbər verdiyi bu sözlərlə bu cür sevgini izah edir:

**İbrahim dedi: "Siz aranızda ancaq dünya həyatına bəslədiyiniz vurğunluğa görə Allahı qoyub bütlərə pərəstiş etdiniz. Sonra isə Qiyamət günü bir-birinizi kafir adlandırıb lənətləyəcəksiniz. Sığınacağınız Od olacaqdır. Sizə yardım edə bilən kəslər də tapa bilməyəcəksiniz" (Ənkəbut surəsi, 25)**

Bədiüzzaman Səid Nursi də bu cür bir sevgiyə sahib olanları gözəl bir örnəklə izah edir. Buna görə bu kəslər, əlindəki güzgülərin köməyiylə Günəşə baxan bir adama bənzəyər. Əlindəki güzgünün qırılaraq, Günəşdən əks olunan işıq kəsiləndə, adam işığı itirməyin qorxusuyla özünü "yeyib bitirər". Amma ağılsızlıq edir: Güzgüdəki işıq, güzgüyə aid deyil ki, o qırılınca işıq da yox olsun. İşıq Günəşə aiddir, güzgülər onu yalnız əks etdirir.

Mömin də bütün sevgisini Allaha yönəltməlidir. Allahı sevmək isə - necə Günəşə güzgülərlə baxılırsa -, Allahın sifətlərinin əks olunduğu varlıqları, bu adların Ona aid olduğunu bilərək sevməkdir.

Bu səbəbdən mömin, Allaha olan sevgisini, Allahın sifətlərini üzərlərində "təcəlli" etdirən və Allahın bəyəndiyi əxlaq ilə əxlaqlanmış möminləri sevərək göstərəcək. Bu sevgi, soy, irq kimi yaxınlıqlara, ya da hər hansı bir mənfəətə əsaslanan deyil. Yalnız Allahı sevməyin nəticəsində, Allahı sevənləri sevməkdən qaynaqlanar. Quranda, bütün möminlər arasında yaşandığı kimi, Peyğəmbərimiz (s.ə.v) dövründə də səhabələr arasında yaşanan bu sevgini Rəbbimiz belə təsvir edər:

**Mühacirlərdən əvvəl Mədinədə yurd salmış, sonra da iman gətirmiş kimsələr öz yanlarına hicrət edənləri sevir, onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar. Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır. (Həşr surəsi, 9)**

Allah, möminlər arasındakı bu sevgini, onlara xüsusi olaraq verdiyini də ayələrdə belə xəbər vermişdir:

**İman gətirib yaxşı işlər görənlər üçün Mərhəmətli Allah qəlblərdə bir sevgi yaradacaq. (Məryəm surəsi, 96)**

**Yəhyaya da: "Ey Yəhya! Kitabdan möhkəm yapış!" – deyə vəhy etdik. Biz ona uşaq ikən hikmət bəxş etdik. Üstəlik Öz tərəfimizdən bir şəfqət və paklıq da bəxş etdik. O, müttəqi idi. (Məryəm surəsi, 12-13)**

Möminlər, ancaq Allahı və Allaha iman gətirənləri səmimi və qəlbdən sevərlər. Bu səbəblə, Allaha qarşı baş qaldıranlara qarşı heç bir sevgi duymazlar. Allah Quran ayələrində bu mövzunu belə xatırladar:

**Ey iman gətirənlər! Mənim düşmənimi də, öz düşməninizi də özünüzə dost tutmayın! Onlar sizə gələn həqiqəti inkar etdikləri halda, siz onlara mehribanlıq göstərib sirrinizi açıb deyirsiniz. Rəbbiniz olan Allaha iman gətirdiyiniz üçün onlar Peyğəmbəri və sizi yurdunuzdan qovub çıxardırlar. Əgər siz Mənim yolumda və Mənim razılığımı qazanmaq uğrunda cihada çıxmısınızsa, onlara gizlində mehribanlıq göstərirsiniz. Mən**

**sizin gizli saxladığınızı da, aşkar etdiyinizi də bilirəm. Sizlərdən kim bunu etsə, doğru yoldan sapmış olar**

**... İbrahim və onunla birlikdə olanlarda sizin üçün gözəl bir nümunə vardır. Onlar öz qövmünə dedilər: "Həqiqətən, biz sizdən və sizin Allahdan başqa tapındığınız şeylərdən uzağıq. Biz sizi inkar edirik. Siz bir olan Allaha iman gətirincəyə qədər bizimlə sizin aranızda daim ədavət və nifrət olacaqdır!" (Mumtəhənə surəsi, 1-4)**

**Ey iman gətirənlər, əgər küfrü imandan üstün sayırlarsa, atalarınız və qardaşlarınızı özünüzə dost tutmayın. Sizdən kim onları dost tutarsa, məhz onlar zalımlardır (Tövbə surəsi, 23)**

**Allaha və axirət gününə iman edən heç bir qövm (birlik) tapa bilməzsən ki, Allaha və Onun elçisinin əleyhinə çıxanlarla bir sevgi (və dostluq) əlaqəsi qurmuş olsunlar; onlar, istər ataları, oğulları, qardaşları, istəsə öz tayfaları (nəsilləri) olsun (Mücadilə surəsi, 22)**

Ayələrdən də aydın olduğu kimi, mömінin sevgisi "Allah üçün sevmək"dən başqa heç bir meyara bağlı deyil. Sevgisi, soy yaxınlığı, maddi zənginlik kimi meyarlara deyil, imana, əxlaq gözəlliyinə bağlıdır. Pul, vəzifə, şöhrət kimi mənasız dəyərlərin sahiblərini deyil, təmiz iman sahiblərini, yəni möminləri sevər.

Sevgisini Allah sevgisi xaricindəki meyarlardan təmizlədiyinə görə, ən çox sevəcəyi adam da Allahın razılığını ən çox axtaran, ən "təqva" (Allahdan qorxub - çəkinmə) sahibi olan insandır. Kim mömin xüsusiyyətlərini üzərində daha çox daşıyırsa, ən çox onu sevəcək. Qurana baxdığımızda, möminlərin ən çox, Allaha ən yaxın və ən "təqva" sahibi olan peyğəmbəri sevdiklərini, onu hər şeydən üstün tutduqlarını görərik:

**Peyğəmbər, möminlər üçün onların özlərindən daha yaxındır ... (Əhzab surəsi, 6)**

Möminin sevgi anlayışı iman təməlinə əsaslandığına görə, evliliyini də eyni təməl üzərinə quracaq. Bu mövzuda da möminlər ilə Allahı inkar edənlər arasında əhəmiyyətli bir fərqlilik ortaya çıxar. Mömin olmayanlar, evliliklərini ümumiyyətlə maddi mənfəətlər üzərinə qurarlar;

Xüsusilə qadınların evlilikdən gözlədiyi, çox vaxt özünü rahat etdirəcək "zəngin bir ər" tapmaqdır. Bir çox gənc qız, xarakterindən heç xoşlanmadığı halda sırf pulu və şöhrəti

üçün bir kişi evlənə bilər. Bu, əslində pul üçün edilən bir cür ticarət razılaşması kimidir. Tək fərq bu "müqavilə" nin ömür boyu sürəcək şəkildə bağlanmasıdır. Necə ki, çox vaxt bu da reallaşmaz və evliliklər qısa müddət içində sona çatar.

Bu cür evlilik nümunələrinə tez-tez rast gəlinir. Yalnız mal, mülk və şöhrət sahibi olduğu üçün yaşlı bir varlı və ya pis əxlaqlı bir insanla evlənən çox sayda gənc insan var.

Mömin olmayanların evliliyi hər zaman pul üzərinə qurulmur. Yalnız fiziki xüsusiyyətlər və cinsəlliyi meyar edən çox sayda gənc qız da vardır. Bunlar, "ağ atlı şahzadə" zənn etdikləri və fiziki cazibədarlığından başqa heç bir xüsusiyyət daşımayan kişilərlə evlənərlər.

Halbuki, bu fiziki xüsusiyyətlərin hamısı qısa müddətdə yox olacaq. Evləndiyi insan bir müddət sonra yaşlanacaq, sağlamlığını, gücünü və gözəlliyini itirəcək. Mütləq yaşlanmasına da ehtiyac yoxdur: Hər hansı bir zamanda qəza keçirə bilər, şikəst qala bilər, iflic ola bilər, ölümcül bir xəstəliyə tutula bilər. Bu vəziyyətdə evliliyin sonu nə olacaq?

Evləndiyi insan ilə bu cür meyarlar uğrunda, söz gəlişi desək,"gözünün gözəlliyi" üçün, evlənmiş olan bir qadın, əri bunları itirsə, məsələn kor olsa nə edəcək? Həyatının ən əhəmiyyətli qərarlarından birini bir göz üçün verdiyinin səhv olduğunu bəlkə ancaq o zaman anlayacaq.

Mömin axirətdəki sonsuz cənnət həyatını hədəfləyər. Bütün həyatı Allahın razılığını və bu böyük "qurtuluş və xoşbəxtliyi" əldə etmək üzərinə quruludur. "Namazı, ibadətləri, həyatı və ölümü" bunlar üzərinə qurulan olduğuna görə, əlbəttə sevgisini və sevginin ən açıq göstəricisi olan evliliyini də bu təməl üzərinə quracaq.

Allah rizası üçün evlilik, "şirk" üzərinə qurulan evlilikdən əlbəttə tamamilə fərqlidir. Allah üçün edilən evliliyin meyarı isə, əlbəttə mal, şöhrət, fiziki kimi müvəqqəti meyarlar ola bilməz. Evliliyini də Allahın razılığını axtararaq quracaq. Evlilik üçün seçdiyi insan da Allah rizasını ən çox qazanmasına vəsilə olacaq olan insandır. Yəni mömin xüsusiyyətlərinə ən çox sahib olan, iman və təqvaya görə ən üstün olduğuna qərar verdiyi insandır ...

Bundan ötrüdür ki, Əsri-Səadət dövründə, Allahın razılığını axtaran mömin qadınlar, həmişə Peyğəmbərimiz (s.ə.v) ilə evlənməyə istəkli olmuşlar. Əksini seçənləri, Allah ayələrində "dünya həyatının bəzəkli - cazibədarlığını istəyənlər" olaraq belə təyin etmişdir:

**Ey Peyğəmbər! Zövcələrinə de: "Əgər siz dünya həyatını və onun bərbəzəyini istəyirsinizsə, gəlin sizi dünya malıyla məmnun edib gözəl tərzdə sərbəst buraxım.Yox, əgər Allahı, Onun Elçisini və Axirət yurdunu istəyirsinizsə, bilin ki, Allah aranızdan yaxşı işlər görənlər üçün böyük bir mükafat hazırlamışdır". (Əhzab surəsi, 28-29)**

## Mömin xüsusiyyətləri

Qurana görə yaşayan bir insan, sevgisini də Qurana görə yaşayanlara, yəni möminlərə yönəldəcək. Möminlərin, onları sevilməyə layiq edən və Allaha iman etmələrindən doğan bəzi xüsusiyyətləri vardır. Mömin, digər möminlərdə bu xüsusiyyətləri axtaracaq, bunları gördüyü üçün onları sevəcək. Bu xüsusiyyətlər bir adamda nə qədər çox ortaya çıxarsa, ona olan sevgisi də o qədər artacaq.

Allahın Quranda bildirdiyi mömin xüsusiyyətlərinin bəzilərini bu cür maddələrə bölə bilərik:

• Möminlər ancaq Allaha qulluq edərlər. Ondan başqa zehinlərində ilahlaşdırdıqları heç bir varlıq yoxdur. (Fatihə surəsi, 1-7; Nisa surəsi, 36)

• Allahdan qorxub - çəkinərlər. Allahın qadağan etdiyi və ya razılığına zidd olan bir şeyi etməkdən çox çəkinirlər. (Al-i İmran surəsi, 102; Yasin surəsi, 11; Təğabun surəsi, 15-16; Zumər surəsi, 23)

• Yalnız Allaha güvənərlər. (Bəqərə surəsi, 249; Tövbə surəsi, 25-26)

• Allahdan başqa heç kimdən qorxmazlar. (Əhzab surəsi, 39)

• Allaha şükür edərlər. Bu səbəblə, iqtisadi cəhətdən qıtlıq, ya da bolluq içində olmaları onlara hər hansı bir kədər, yaxud da təkəbbür hissi verməz. (Bəqərə surəsi, 172; İsra surəsi, 3; İbrahim surəsi, 7)

• Qəti imanla iman etmişlər. Allahın razılığını qazanmaqdan dönmək kimi bir düşüncəyə əsla qapılmazlar. Hər gün daha şövqlü və həyəcanlı şəkildə xidmətlərini davam etdirərlər. (Hucurat surəsi, 15; Bəqərə surəsi, 4)

• Qurana qüvvətlə bağlıdırlar. Bütün hərəkətlərini Qurana görə nizamlayarlar. Qurana görə səhv olduğunu gördükləri bir rəftardan dərhal imtina edərlər. (Əraf surəsi, 170; Maidə surəsi, 49; Bəqərə surəsi, 121)

• Davamlı Allahı xatırlayarlar. Allahın hər şeyi görən və eşidən olduğunu bilir, davamlı Allahın sonsuz qüdrətini ağıllarında tutarlar. (Al-i İmran surəsi, 191; Rad surəsi, 28; Nur surəsi, 37; Əraf surəsi, 205; Ənkəbut surəsi, 45)

• Allah qarşısında acizliklərini bilirlər. Təvazökardırlar. (Ancaq bu, insanlara qarşı aciz görünmək və əzik rəftarlar sərgiləmək demək deyil.) (Bəqərə surəsi, 286; Əraf surəsi, 188)

• Hər şeyin Allahdan olduğunu bilirlər. Bu səbəblə, heç bir hadisə qarşısında təlaşa qapılmaz, hər zaman soyuqqanlı və təvəkküllü davranarlar. (Tövbə surəsi, 51; Təğabün surəsi, 11; Yunis surəsi, 49; Hədid surəsi, 22)

• Axirətə yönəlmişlər, əsl hədəf olaraq axirəti müəyyənləşdirmişlər. Ancaq dünya nemətlərindən də faydalanar, dünyada da cənnət mühitinin bir bənzərini meydana gətirməyə çalışarlar. (Nisa surəsi, 74; Sad surəsi, 46; Əraf surəsi, 31-32)

• Yalnız Allahı və möminləri dost və sirdaş edərlər. (Maidə surəsi, 55-56; Mücadilə surəsi, 22)

• Ağıl sahibidirlər. Hər an ibadət şüurunda olduqlarından davamlı diqqətli və oyanıqdırlar. Davamlı olaraq möminlərin və dinin lehinə ağıllı xidmətlər edərlər. (Mömin surəsi, 54; Zumər surəsi, 18)

• Bütün gücləriylə Allah adına inkarçılara, xüsusilə inkarçıların rəhbərlərinə qarşı böyük bir fikri mübarizə aparарlar. Heç qorxmadan və yorulmadan mübarizələrini davam etdirərlər. (Ənfal surəsi, 39; Həcc surəsi, 78; Hucurat surəsi, 15; Tövbə surəsi, 12)

• Haqqı söyləməkdən çəkinməzlər. İnsanlardan çəkinmədiklərindən ötəri həqiqəti açıqlamaqdan geri qalmazlar. İnkar edənlərin haqlarında söylədiklərinə, lağ etmələrinə və hücumlarına məhəl qoymazlar, qınayıcıların qınamasından qorxmazlar. (Maidə surəsi, 54, 67; Əraf surəsi, 2)

• Allahın dinini təbliğ etmək üçün hər yolu sınayar, müxtəlif formalarda insanları Allahın dininə dəvət edərlər. (Nuh surəsi, 5-9)

• Təzyiq edən deyildirlər. Mərhəmətli və yumşaq xasiyyətlidirlər. (Nəhl surəsi, 125; Tövbə surəsi, 128; Hud surəsi, 75)

• Qəzəblərinə qapılmazlar, anlayışlı və bağışlayıcıdırlar. (Al-i İmran surəsi, 134; Əraf surəsi, 199; Şura surəsi, 40-43)

• Etibarlı insanlardır. Son dərəcə güclü bir şəxsiyyət göstərər, ətraflarına da təhlükəsizlik təlqin edərlər. (Əd-Duxan surəsi, 17-18; Təkvir surəsi, 19-21; Maidə surəsi, 12; Nəhl surəsi, 120)

• Sehrbazlıq və dəliliklə günahlandırılarlar . (Əraf surəsi, 132; Yunis surəsi, 2; Sad surəsi, 4; Hicr surəsi, 6; Qəmər surəsi, 9)

• Təzyiq və zülm görərlər. (Şuəra surəsi , 49 , 167; Ənkəbut surəsi , 24; Yasin suresi , 18; İbrahim surəsi , 6; Nəml surəsi , 49 , 56; Hud surəsi, 91 )

• Çətinliklərə qatlanarlar. (Ənkəbut surəsi, 2-3; Bəqərə surəsi, 156, 214; Al-i İmran surəsi, 142, 146, 195; Əl-Əhzab surəsi, 48; Məhəmməd surəsi, 31; Ənam surəsi, 34)

• Zülmdən və öldürülməkdən qorxmazlar. (Tövbə surəsi, 111; Al-i İmran surəsi, 156-158, 169-171, 173; Şüəra surəsi, 49-50; Saffat surəsi, 97-99; Nisa surəsi, 74)

• İnkarçıların hücum və tələləri ilə qarşılaşar, lağ edilərlər. (Bəqərə surəsi, 14, 212)

• Allahın qoruması altındadırlar. Əleyhlərində qurulan bütün tələlər boşa çıxar. Allah, onları bütün böhtan və tələlərə qarşı qoruyaraq, onları üstün edər. (Al-i İmran surəsi, 110-111, 120; İbrahim surəsi, 46; Ənfal surəsi, 30; Nəhl surəsi, 26; Yusif surəsi, 34; Həcc surəsi, 38; Maidə surəsi, 42, 105; Nisa surəsi, 141)

• İnkarçılara qarşı tədbirlidir. (Nisa surəsi, 71, 102; Yusif surəsi, 67)

• Şeytanı və dostlarını düşmən hesab etmişlər. (Fatir surəsi, 6; Zuxruf surəsi, 62; Mumtəhənə surəsi, 1; Nisa surəsi, 101; Maidə surəsi, 82)

• Münafiqlərə qarşı fikri mübarizə aparar, münafiq xarakteri daşıyanlarla birlikdə olmazlar. (Tövbə surəsi, 83, 9, 123)

• İnkarçıların zorakılıqlarına fikirlə mane olarlar. (Əhzab surəsi, 60-62; Həşr surəsi, 6; Tövbə surəsi, 14-15, 52)

• Bir-birləri ilə məsləhətləşərək (müşavirə ilə) hərəkət edərlər. (Şura surəsi, 38)

• İman etməyənlərin mənasız dəbdəbəli həyatına həsəd aparmazlar. (Kəhf surəsi, 28; Tövbə surəsi, 55; Taha surəsi, 131)

• Zənginlik və vəzifədən təsirlənməzlər. (Həcc surəsi, 41; Qəsas surəsi, 79-80; Nəhl surəsi, 123)

• İbadətlərdə dəqiqlik göstərər, 5 vaxt namazlarını qıla , oruc və bənzəri ibadətləri diqqətlə yerinə yetirərlər. (Bəqərə surəsi, 238; Ənfal surəsi, 3; Muminun surəsi, 1-2)

• Çoxluğa deyil, Allahın verdiyi meyarlara uyarlar. (Ənam surəsi, 116)

• Allaha yaxınlaşmaq, nümunəvi bir mömin olmaq üçün səy sərf edərlər. (Maidə surəsi, 35; Fatir surəsi, 32; Vaqiə surəsi, 10-14; Furqan surəsi, 74)

• Şeytanın təsirinə düşməzlər. (Əraf surəsi, 201; Hicr surəsi, 39-42; Nəhl surəsi, 98-99)

• Atalarına kor-koranə tabe olmazlar. Qurana və sünnəyə görə hərəkət edərlər. (İbrahim surəsi, 10; Hud surəsi, 62, 109)

• Qadınların əzilməsinə göz yummazlar. (Nur surəsi, 4; Talaq surəsi, 6; Bəqərə surəsi, 231, 241; Nisa surəsi, 19)

• İsrafdan çəkinirlər. (Ənam surəsi, 141; Furqan surəsi, 67)

• Namuslu davranarlar və Allahın istədiyi şəkildə evlənərlər. (Muminun surəsi, 5-6; Nur surəsi, 3, 26, 30; Bəqərə surəsi, 221; Maidə surəsi, 5; Mumtəhənə surəsi, 10)

• Dində ifrata getməzlər. (Bəqərə surəsi, 143; Nisa surəsi, 171)

• Fədakardırlar. (İnsan surəsi, 8; Al-i İmran surəsi, 92, 134; Tövbə surəsi, 92)

• Təmizliyə diqqət edərlər. (Bəqərə surəsi, 125, 168; Müddəssir surəsi, 1-5)

• Estetikaya və sənətə əhəmiyyət verərlər. (Səba surəsi, 13; Nəml surəsi, 44)

• Möminlərin arxasından danışmaz, qüsurlarını araşdırmazlar. (Hucurat surəsi, 12)

• Həsəd etməkdən çəkinərlər. (Nisa surəsi, 128)

• Allahdan bağışlanma diləyən kimsələrdir. (Bəqərə surəsi, 286; Al-i İmran surəsi, 16-17, 147, 193; Həşr surəsi, 10; Nuh surəsi, 28)

**Möminlərə edilən təzyiqlər**

Yuxarıdakı mömin xüsusiyyətlərində əslində iki ayrı mövzu vardır:

Birincisi, Allaha qulluq etmək, fədakarlıq, təvazökarlıq kimi möminlərin özlərinin sahib olduğu gözəl xüsusiyyətlər.

İkincisi, inkar edənlərin onlarla lağ etməsi, onlara tələ hazırlaması kimi öz əllərində olmayan xüsusiyyətlər.

Əslində bu ikinci cür xüsusiyyətlər, səmimi mömini tanımaqda son dərəcə əhəmiyyətlidir. Çünki birinci növün əhəmiyyətli bir hissəsi "təqlid edilə bilən"

xüsusiyyətlərdir. Məsələn, bir münafiq də, mənfəətinə uyğun olduğu üçün 5 vaxt namaz qıla bilər, bəzi fədakarlıqlar edə bilər. Amma ikinci cür xüsusiyyətlər "təqlid edilə bilməz" xüsusiyyətlərdir. İnkar edənlər, ancaq həqiqi bir möminə təzyiq etməyə çalışırlar.

Bu səbəblə, möminləri qiymətləndirərkən bu ikinci növ xüsusiyyətlərə də çox əhəmiyyət vermək lazımdır. Bir birliyin doğrudan da, saleh mömin birliyi olub-olmadığını anlamaq üçün Quranda Allahın dəyişməz qanunu olaraq bildirilən bu meyarlara baxılmalıdır.

Müsəlmanlara edilən şifahi təzyiq və böhtanları dəyərləndirərkən, əvvəlki müsəlmanların başına gələnlər, əsas müraciət qaynağımız olmalıdır. Çünki Allah Quranda, əvvəlki möminlərin qarşılaşdıqları çətinlikləri və məruz qaldıqları böhtanları təfərrüatlı olaraq izah etmiş və belə bildirmişdir:

**Yoxsa sizdən əvvəl gəlib-keçənlərin halı başınıza gəlmədən cənnətə girəcəyinizimi sandınız ? ... (Bəqərə surəsi, 214)**

Quranda "əvvəlkilərin başına gələnlər" in təfərrüatlarıyla izah edildiyi ayələrdə isə, olduqca diqqət çəkici bir xüsusla qarşılaşarıq. Görərik ki, peyğəmbərlərə və ya möminlərə düşmən olanlar, onlara hücum edənlər ümumiyyətlə, "Bu insanlar Allaha iman edirlər, Onun razılığını axtarırlar" ya da "Bu insanlar bizim kimi əxlaqsız deyillər, yüksək bir əxlaqa sahibdirlər" kimi sözlər söyləmirlər. Tam tərsinə möminlərə, öz ağıllarına görə böhtan atmağa çalışır, onları ən ən pis günahlarla ittiham edirlər.

Əlbəttə "Biz Allaha qarşı gəldik, heç bir əxlaqi sərhədi tanımırıq və maraqlarımıza zidd düşən bu insanları əzmək istəyirik" deməyəcəklər. "Bunlar Allahın hökmlərini tətbiq edən vicdanlı insanlardır, biz isə sərhədi aşmış zalımlarıq" kimi bir etiraflar da etməyəcəklər. Tam tərsinə özlərini "gözəl əxlaqlı və ağıllı" ideal insanlar olaraq göstərib, möminləri qaralayaraq, öz ağıllarına görə hücumlarına qanuni zəmin hazırlamağa çalışacaqlar. Quranda "əvvəlkilərin başına gələnlər" in izah edildiyi hekayələrdə, inkar edənlərin həmişə bu metodu izlədiklərini görərik.

Məsələn, hz. Nuh (ə.s.), göndərildiyi cəmiyyəti bütün peyğəmbərlər kimi yalnız Allaha qulluq etməyə çağırmışdı. Yalnız Allaha ibadət üzərinə inşa edilmiş bir nizam isə, əlbəttə batil sistem sayəsində güc və status əldə etmiş olan qövmünün "başında olanları" nın maraqlarına əks düşmüşdü. Amma bu qabaqcıllar əlbəttə, "bu adamın istədikləri maraqlarımıza əksdir" deməmişlər. Tam tərsinə, hz. Nuh (ə.s)-a böyük bir böhtan da

ataraq, mənfəət güdməklə, "mövqe və məqam" qazanmağa çalışmaqla günahlandırdılar. Rəbbimiz bu vəziyyəti ayələrində belə xəbər vermişdir:

**Həqiqətən, Biz Nuhu öz qövmünə elçi göndərdik. O dedi: “Ey qövmüm! Allaha ibadət edin! Sizin Ondan başqa heç bir məbudunuz yoxdur. Məgər qorxmursunuz?” Qövmünün kafir zadəganları dedilər: “O da sizin kimi sadəcə bir insandır. Sizə böyüklük etmək istəyir.... " (Muminun surəsi, 23-24)**

Eyni ağılsız hərəkət hz. Musa (ə.s.) və hz. Harun (ə.s.)-a da edilmişdir. Ayədə xəbər verildiyi kimi, Firon və ətrafı onlara; **"... Onlar dedilər: “Gəlmisiniz ki, bizi atalarımızın tutduğu yoldan döndərəsiniz və yer üzündə böyüklük etmək ikinizə qalsın? Biz sizə iman gətirən deyilik”.** (Yunis surəsi, 78) demişlər.

Möminlərə atılan böhtanlar daha fərqli ölçülərə də çata bilər. Tarix boyunca Allahın elçiləri, ətraflarındakı möminləri "ovsunlayıb-aldatmaqla" günahlandırmışlar:

**Onlar dedilər: “Bu ikisi, doğrudan da, sehrbazdır. Onlar öz sehrləri ilə sizi torpağınızdan qovub çıxartmaq və sizin ən gözəl yolunuzu aradan götürmək istəyirlər. " (Taha surəsi, 63)**

**... kafirlər dedilər: “Bu, yalançı bir sehrbazdır!. (Sad surəsi, 4)**

Müsəlmanları qaralamağa çalışanlar, öz xüsusiyyətlərini möminlərə aidmiş kimi göstərməyə çalışırlar. Belə ki, hz. Nuh (ə.s) kimi mübarək bir insan üçün "**Xeyr, o, yalançıdır, lovğadır!** " (Qəmər surəsi, 25) belə deyərək, əslində özlərinin yalançı olduqlarını sübut etmişdirlər .

Tez-tez gündəmə gətirilən bir başqa böhtan isə "dəlilik "lə ittiham edilmədir. Əslində bu ittihamın arxasında yatan əhəmiyyətli bir anlayış əskikliyi vardır. İnkar edənlər, "Allahın razılığını qazanmaq" kimi bir anlayışa sahib olmadıqlarından, möminlərin yalnız bu məqsədə yönəlmiş olaraq hərəkət etdiklərini qavramaqda çətinlik çəkərlər. Həqiqətdə heç bir mənfəət güdmədiklərini bildikləri möminlərin, bütün həyatlarını Allahın razılığı uğrunda yaşamalarına öz tərs dünyagörüşləri səbəbiylə məna verə bilməzlər. Onların batil düşüncə strukturlarına görə, belə idealist bir rəftar ancaq "dəlilik"dir. Necə ki, bu böhtanı keçmişdə tez-tez istifadə etmişlər. Ayələrdə xəbər verildiyi kimi, Firon, hz. Musa (ə.s.) üçün, **"Sizə göndərilmiş bu elçi, sözsüz ki, dəlidir!"** (Şüəra surəsi, 27) demiş; qövmü, hz. Nuh (ə.s)-ı yalanlayarkən o bir **"dəlidir "** (Qəmər surəsi, 9) iddiasında olmuşdur.

Möminlər bunlarla yanaşı zina böhtanı ilə də günahlandırılmışdır. Hz. Yusif (ə.s) və bütün mömin qadınlara nümunə olaraq göstərilən hz. Məryəm (ə.s.), bu böhtanla qarşılaşmış mübarək insanlardandır. Əksər peyğəmbər "**azmış**" (Əraf surəsi, 60) iftirasına məruz qalmışdır.

Bütün bunların "əvvəlkilərin başına gəlmiş" və bitmiş hadisələr olduğunu düşünmək əlbəttə son dərəcə səhv olar. Allah Quranda eyni şeylərin digər möminlərin başına gələ biləcəyini də xəbər vermişdir. Bu səbəbdən eyni ittiham və qaralamalarla, haqq dini müdafiə edən və beləliklə, din əxlaqından uzaq çevrələri narahat edən hər mömin qarşılaşa bilər.

Müsəlmanlar haqqında deyilənlərin, hər zaman bu cür bir qaralama kampaniyasının parçası ola biləcəyi göz qarşısında saxlanılmalı və Rəbbimizin aşağıdakı ayəsində əmr etdiyi kimi, "fasiq" (doğru yoldan azmış)ların gətirəcəyi bu cür xəbərlərə "dəqiq araşdırmadan" etibar edilməməlidir. Mövzuyla əlaqədar ayə belədir:

**Ey iman gətirənlər! Əgər bir fasiq sizə bir xəbər gətirsə, onu araşdırın. Yoxsa bilmədən bir qövmə pislik edər, sonra da bunun peşmançılığını çəkərsiniz.(Hucurat surəsi, 6)**

## Cahil cəmiyyətində həyat

Əvvəlki səhifələrdə, möminlərlə digər insanlar arasındakı ən əhəmiyyətli fərqin, möminlərin Allahın sonsuz qüdrətinin fərqində olmaları olduğunu ifadə etmişdik. Həmçinin Allahın varlığına qəlbdən iman edən bir möminin bütün həyatını necə təşkil etdiyini və tənzimləməsi lazım olduğunu araşdırmışdıq.

Allahın gücünü təqdir edə bilən və bu səbəbdən həyatını Allah rizası üzərində quran bir insanın sahib olduğu ən əhəmiyyətli xüsusiyyətlərdən biri də, həyatının hər saniyəsində yalnız Allahın razılığını və rəhmətini düşünərək hərəkət etməsidir. O, həyatını Allahın razılığını qazanmaq, Ona "qul" olmaq hədəfi üzərində qurduğuna görə, Allahın yaratdığını və nəzarət etdiyini qavradığı bütün kainata artıq dəyişik bir gözlə baxacaq. Yalnız Allahı

İlah olaraq tanıdığı üçün, saxta tanrılar artıq mömin üçün bir şey ifadə etməyəcək. Allah Quranda bu mövzunu, hz. İbrahim (ə.s)-ın söylədiyini bildirdiyi bu sözlərlə vurğulamışdır:

**Kitabda İbrahimi də xatırla! Həqiqətən, o, sadiq insan və peyğəmbər idi. Bir zaman o, atasına demişdi: "Atacan! Nə üçün eşitməyən, görməyən və sənə heç bir faydası olmayan bir şeyə sitayiş edirsən?"(Məryəm surəsi, 41-42)**

Mömin, yalnız Allahın məmnuniyyətini axtardığı, yalnız Ona yalvardığı, yalnız Ondan istədiyi üçün yalnız Allaha yönələr. Allah xaricində heç kimi məmnun etmə ehtiyacı hiss etməz, Allahdan başqasından mədət ummaz. İnsanın həqiqi azadlığı, onsuz da ancaq, bu həqiqəti qavrayaraq Allaha yönəlməsiylə olar.

Həqiqi imana sahib olmayanların həyatları isə, möminin tam tərsinə, saysız saxta ilahın boyunduruğu altındadır. Belə insanlar, həyatlarını saysız insanı məmnun etməyə həsr edərlər. İnsanlardan kömək istəyib mədət umarlar. Halbuki öz cahil məntiqlərinə görə zehinlərində tanrılaşdırdıqları bu varlıqlar da eynilə özləri kimi aciz bir "qul"dur. Əlbəttə ki, bu varlıqlar onların istəklərinə cavab verə bilməzlər, onları xilas edə bilməzlər. Ölüm, bu saxta ilahların insana həqiqətdə heç bir faydası olmadığını ortaya qoyan ən qəti həqiqətdir. Amma, bu xəyali ilahların xəyali olduqlarını anlamaq üçün ölümü gözləmək, çox gec qalmaq mənasını verər. Allah Quranda, bu insanların içində olduğu çıxılmaz vəziyyəti belə təsvir edir:

**Bir çarə tapmaları üçün müşriklər Allahdan başqa məbudlar qəbul etdilər. Amma məbudlar onlara heç bir kömək edə bilməzlər. Hərçənd ki, onlar bunlar üçün hazır durmuş əsgərlərdir. (Yasin surəsi, 74-75)**

Məhz mömin olmayanların həyatları bu tərs təməl üzərinə qurulmuşdur. Bu təməldən ötəri möminlərlə digər insanlar arasındakı bir başqa əhəmiyyətli fərq də ortaya çıxar: Möminlər özlərinə rəhbər olaraq, Allahın onlara verdiyi meyarları qəbul edər, haqq kitab olan Qurana və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsinə tabe olarlar. Onların dini, Allahın Quranda təsvir etdiyi və Peyğəmbərimiz (s.ə.v)-in nümunəvi həyatıyla tanıtdığı İslamdır.

Həyatlarını Allahın fərqində olmadan davam etdirən insanlar isə, əlbəttə özlərinə rəhbər olaraq, Allahın deyil, zehinlərindəki saxta ilahların meyarlarını qəbul edəcəklər. Haqq din olan İslama deyil, batil anlayışlara və inanclara sahib olan saxta bir dinə tabe olacaqlar. Onların dini, çox ilahlı azğın bir dindir. Bu insanlar, özlərinə meyar olaraq, içində olduqları cəmiyyətin batil dəyərlərini qəbul etdikləri üçün, bir-birindən fərqli qayda və məqsədlərə sahib olarlar. Bu səbəblə, yaşadıqları çox ilahlı dinin müxtəlif növləri vardır.

Ancaq bunu da ifadə etməkdə fayda vardır: Bir insanın içində yaşadığı cəmiyyətin nizamına uyğun gəlməsi, qanunlara və qaydalara tabe olması son dərəcə əhəmiyyətli və lazımlıdır. Burada nəzərdə tutulan doğrunu, gözəli, sevgini və hörməti təlqin edən və yaşadan ictimai qaydalar deyil, mənfəəti, eqoizmi, sevgisizliyi və mərhəmətsizliyi təlqin edən batil dəyərlərdir.

Kiminin həyatdakı məqsədi, pul və güc əldə etmək, kimininki hörmət edilən və sözü qəbul edilən bir insan olmaqdır. Kimisi həyatının məqsədini "yaxşı bir yoldaş" tapıb, "xoşbəxt bir yuva qurmaq" olaraq isdiqamətləndirər. Bunların hamısı bir möminin də həyatında olan ünsürlərdir. Amma saleh bir mömin heç birinə lazım olandan çox dəyər verməz. Daha da əhəmiyyətlisi bu mövzular haqqında Allahın Quranda bildirdiyi və Peyğəmbərimiz (s.ə.v)-in öyüdləri xaricində bir anlayışa, mühakiməyə sahib olmaz. Din əxlaqını yaşamayan insanların isə, özlərinə məqsəd qoyduqları hər bir hədəf üçün din əxlaqına uyğun olmayan üsulları və yolları vardır. "Həyat tərzi" olaraq adlandırdıqları bu batil anlayışların hər biri əslində batil bir dindir və Allahın varlığını və sərhədlərini qavraya bilməmək təməli üzərinə qurulmuşdur.

Halbuki insanların yaradılışı, Allaha qul olma və Allaha güvənmə üzərinə quruludur. İnsan, sonsuz istək və ehtiyaclarını öz-özünə qarşılamaq imkanına sahib olmadığı üçün, yaradılışdan Allaha bağlanmağa möhtacdır. Bu səbəbdən insan fitrəti, Allahı "Rəbb" (təlimatçı, yol göstərici, qayda qoyucu) olaraq qəbul etməyə uyğundur:

**Sən bir hənif kimi üzünü dinə tərəf çevir! Allahın insanlara – xəlq etdiyi şüurlu məxluq kimi verdiyi fitrət budur. Allahın yaratdığını heç cür dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların çoxu bunu bilmir. (Rum surəsi, 30)**

Nəfsin pis arzularına qapılmayıb, Allaha iman edən xalis bir mömin, bütün həyatı boyunca "nə etməsi lazım olduğunu" Onun kitabından və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsindən öyrənər, peyğəmbərləri özünə nümunə götürər. Möminin həyatı, inkar edənlərdən tamamilə fərqlidir. Hətta mömin, inkarçıların heç bilmədikləri bəzi həqiqətləri yenə Qurandan öyrənər. Məsələn, Allah Quranda Özündən qorxub pis əməllərdən çəkinənlərə hər cür vəziyyətdə mütləq bir çıxış yolu göstərəcəyini müjdələmişdir:

**... Allahdan qorxana, Allah çıxış yolu göstərər və ona təsəvvürünə gətirmədiyi bir yerdən ruzi bəxş edər. Kim Allaha təvəkkül etsə, Allah ona kifayət edər. Allah Öz əmrini yerinə yetirəndir. Allah hər şey üçün bir ölçü qoymuşdur. (Talaq surəsi, 2-3)**

Allahın qüdrətinin fərqinə varan və Onu haqqıyla tanıyan mömin həyatını Allaha təslim edəcək. Çünki bilir ki, "kim Allaha təvəkkül etsə, Allah ona kifayət edər". Bir ayədə hz. Yaqub (ə.s)-ın oğullarına bu mövzuda verdiyi bir öyüd-nəsihəti belə xəbər verilir:

**... Allahın iradəsinə qarşı isə heç bir şeylə sizə fayda verə bilmərəm. Hökm yalnız Allahındır. Mən ancaq Ona təvəkkül edirəm. Qoy təvəkkül edənlər də ancaq Ona təvəkkül etsinlər". "(Yusif surəsi, 67)**

Bu həqiqəti qavrayan mömin, həyatdakı vəzifəsinin Allahın hökmlərini tətbiq etməkdən başqa bir şey olmadığını görəcək. Onun vəzifəsi də, "peşəsi" də budur. Ancaq Allah yolunda cəhd etməklə məsuldur. Hər şeyi Allahdan istəyər, çünki özünə hər şeyi verən Allahdır. Möminlərin bu gözəl əxlaqlarını Allah Quranda belə xəbər vermişdir:

**Mən cinləri və insanları ancaq Mənə ibadət etmək üçün yaratdım. Mən onlardan ruzi istəmirəm. Mən onlardan Məni yedirtmələrini də istəmirəm. Həqiqətən, Allah ruzi verəndir, qüvvət sahibidir, Mətindir. (Zariyat surəsi, 56-58)**

Bu səbəbdən, Quranda təsvir edilən əxlaqa sahib bir mömin üçün "gələcək qorxusu" deyə bir şey ola bilməz. Bu qorxu ancaq, həyatı , bir-birindən müstəqil milyonlarla saxta ilahın arasındakı bir çəkişmə olaraq görənlərə xasdır. Hadisələrin Allahın idarəsində və təqdir etdiyi qədər içində baş verdiyini bilməyən bu insan, "öz həyatını qurtarma" mübarizəsi etməsi lazım olduğunu zənn edir. "İmkanı"nı "daşdan çıxarması" lazım olduğu düşüncəsindədir. Belə düşündüyü üçün də, belə qarşılıq görər. Bədiüzzaman Səid Nursi, Allahı tanımayanların, insanın əsl vəzifəsinin qulluq olduğunu anlaya bilmədiklərini izah etdikdən sonra belə deyir:

"... "Həyat bir cidal (qarşıdurmadır)" deyə əbləhanə (ağılsız) hökm etmişlər."

Məhz bu, "həyat bir qarşıdurmadır" məntiqindən doğan ruh halı, Quran əxlaqını yaşamayanlar sahib olduğu dinin əsas xüsusiyyətlərindən biridir. Bəhsi keçən yanlış məntiq səbəbiylə bu insanlar, davamlı çətinlik və narahatlıqla dolu bir ruh halı içində yaşayarlar. Belə ki;

- Bu kəslərin əksəriyyəti, möminlərin tam əksinə, eqoist, mənfəətçi, kiçik mənfəətlər arxasında qaçan, tək dərdi "mənfəətini gözləmək" olan insanlardır.

- Fədakarlıqdan, fədakarlığın gətirdiyi incəlikdən xəbərləri yoxdur. Sevgiləri mənfəətə əsaslanır: Bir insanı, o insanda olan gözəl xüsusiyyətlərdən ötəri deyil, yalnız "mənfəət üçün" sevərlər.

- Təbii ki, özlərini sevdiklərini söyləyən başqa insanların da eyni şəkildə sevdiyini bilirlər. Bu səbəblə, heç bir zaman sədaqət və vəfa mühitində yaşaya bilməzlər. Həmişə "ya məndən daha zənginini, daha gözəlini, daha yaraşıqlısını taparaq məni tərk edərsə" narahatlığı içindədirlər.

- Qısqancdırlar. Bu səbəblə, gözəllikdən və yaxşılıqdan zövq almağı bilməzlər. Məsələn, bir insanın gözəlliyinə baxıb, ondan zövq alacaq və "Allah nə gözəl yaratmış" deməyin rahatlığını yaşayacaq yerdə, "niyə bu gözəllik məndə yox, onda var" düşüncəsi ilə özlərini yeyərlər.

- Allahın nemətinə şükür etməyi və özlərinə verilənlərlə qane olmağı bilməzlər. Bu səbəblə, həmişə "daha çox"unu istəyərlər. Bu istək heç bir zaman təmin edilə bilməz və davamlı bir narahatlıq qaynağı olar.

- Aciz və zəif olduqlarını qəbul edib Allahdan kömək istəməzlər. Allaha təkəbbür göstərərək, Ondan kömək istəməyərək acizlik və zəifliklərinin yox olacağını zənn edərlər. Halbuki, belə etməklə acizlikləri və zəiflikləri yox olacaq deyil. Bu dəfə insanlardan mədət umarlar. Amma qarşılarındakı da özləri kimi yalnız maraqlarını düşünən aciz biridir və həqiqi mənada şəfqət və mərhəmət göstərməkdən məhrumdur. Bu səbəbdən, umduqlarına çata bilmədikləri üçün tez-tez "depressiya" keçirər, xarakter sarsıntısı yaşayarlar.

- Bağışlayıcı və anlayışlı olmaqdan məhrumdurlar. Bu səbəblə aralarındakı ən kiçik bir anlaşılmazlıq, qarşıdurma və döyüşə çevrilə bilər. Hər iki tərəf də çox vaxt qarşı tərəfə keçməyi öz qüruruna yedirə bilməz. Bu səbəblə tez-tez böyük münaqişələr edərlər.

- Allahın qoruması və idarəsi altındakı bir dünyada deyil, tək qaydanın "qalib gəlmək" olduğu vəhşi bir meşədə yaşadıqlarını düşünürlər. Öz azğın düşüncələrinə görə, bu "meşə"də yaşaya bilmək üçün sərt, təcavüzkar və eqoist olmaları lazımdır. Belə düşündükləri üçün də belə "qarşılıq" görərlər: Ya cahil cəmiyyət sözüylə, "kiçik balıq" olub udulurlar, ya da "böyük və zalım balıq" olub digərlərini udarlar.

Həqiqi imanı yaşamayan, təsvir edilən yanlış əxlaq anlayışına görə hərəkət edən insanların olduğu hər cəmiyyətin qaydaları yuxarıda sayılan kimidir. Rəbbimiz Quranda, bu cəmiyyətləri Özünün və axirətin fərqində olmadıqları üçün- "cahil" cəmiyyətləri olaraq tanıtmışdır. Rəbbimizin Quranda bildirdiyi kimi heç bir vəchlə ağıllanıb, Allaha təslim olmayan İsrail oğulları içindən bəzi kəslər də, hz. Musa (ə.s) tərəfindən cahil olaraq adlandırılmışlar. Mövzuyla əlaqədar ayələr belədir:

**Biz İsrail oğullarını dənizdən keçirtdik və onlar öz bütlərinə tapınan bir qövmə rast gəldilər. Onlar dedilər: "Ey Musa! Onların məbudları olduğu kimi, bizim üçün də bir məbud düzəlt". Musa dedi: "Həqiqətən, siz cahil bir tayfasınız. Şübhəsiz ki, bunların etiqad etdikləri əqidə məhvə məhkumdur, gördükləri işlər isə batildir". Musa dedi: "O, sizi aləmlərdən üstün etdiyi bir halda, mən sizin üçün Allahdan başqa məbudmu axtaracağam?" (Əraf surəsi, 138-140)**

Amma bir az əvvəl də ifadə etdiyimiz kimi, "cahil cəmiyyət" tək bir bütün deyil. Belə bir cəmiyyətin içində, hamısı eyni "cahillik" xüsusiyyətiylərinə malik deyil, bir-birindən fərqli seqmentlər də ola bilər. Bu seqmentlər ümumiyyətlə, "cahil cəmiyyətin"nin dəyər verdiyi etibarsız meyarlardır ki, ən əvvəl iqtisadi güc gəlir, əldə edən və etməyən deyə ikiyə ayrılırlar.

### "Cahil" cəmiyyətində insanlara verilən dəyərin ölçüsü

Saleh möminlər üçün, insanları dəyərləndirmənin ölçüsü "təqva"dır (Allahdan qorxub - çəkinmə ölçüsü, Allaha yaxınlıq). İman sahibi olmayanların meydana gətirdiyi cahil cəmiyyətində isə, insanlar həm özlərini, həm də digər insanları böyük ölçüdə "pul" meyarına görə qiymətləndirərlər.

Vəziyyət belə olduqda, cahil cəmiyyətində bir çox tərs məntiq ortaya çıxar;

-Zəngin, varlı olan biri, son dərəcə sadə və əxlaqsız da olsa, "cahil" cəmiyyətində hörmət görəcək.

- Cəmiyyətdə yaranan bu qayda səbəbiylə, bəhsi keçən "pullu, amma əxlaqsız" adam da özünün çox "hörmətli" bir adam olduğunu sanacaq.

- "Pul" bu cür əhəmiyyətli bir meyar olduqda, "pulsuz" olanlar da avtomatik olaraq, "pullu"ların tam tərsinə müəyyən bir əziklik və etibarsızlıq duyğusu yaşayacaqlar. Xüsusilə "pullu"ların yanında, "pulsuz" olanların bu rəftarı dərhal müəyyən olar. Maddi vəziyyəti pis olan adam, bəlkə qarşısındakı varlının son dərəcə əxlaqsız və sadə bir adam olduğunu, özünün ondan əxlaqi cəhətdən daha üstün olduğunu fərq edəcək, amma o da hələ "cahil cəmiyyətin" nin dəyərləri ilə mühakimə olunmağın təsirində olacaq: "Pulsuz" olmağın gətirdiyi əzikliyi asanlıqla həzm edə bilməyəcək.

- Pulun bu qədər əhəmiyyətli meyar olduğu cahil cəmiyyətində, təbii olaraq böyük bir əxlaqi degenerasiya yaşanacaq. Rüşvət, korrupsiya, saxtakarlıq kimi anlayışlar gündəlik həyatın bir parçası halına gələcəkdir. Bu cahil insanlara görə ən böyük dəyər pul olduğu üçün, pulu əldə etməyə yarayan hər üsul, nə qədər əxlaqsız və ədalətsiz də olsa, qanunilik qazanacaq.

Qurandakı Qarun hekayəsi ilə, Allah, cahil cəmiyyətinin bəhsi keçən mövzu "pul mərkəzli" olma xüsusiyyətini ən gözəl şəkildə belə izah edir:

**Həqiqətən, Qarun Musa ilə həmtayfa idi. Amma onlara qarşı yamanlıq edirdi. Biz ona elə xəzinələr vermişdik ki, onların açarlarını daşımaq bir dəstə qüvvətli adama ağır gəlirdi. Qövmü ona dedi: “Öyünmə! Həqiqətən, Allah öyünənləri sevmir. Allahın sənə verdiyi ilə Axirət yurduna can at. Dünyadakı nəsibini də unutma. Allah sənə yaxşılıq etdiyi kimi, sən də başqalarına yaxşılıq et. Yer üzündə fitnə-fəsad törətməyə çalışma. Şübhəsiz ki, Allah fitnə-fəsad törədənləri sevmir”. Qarun dedi: “Bu mənə ancaq məndə olan biliyə görə verilmişdir”. Məgər o bilmirdi ki, Allah ondan əvvəlki nəsillərdən, ondan daha qüvvətli və daha çox var-dövlət yığan kəsləri məhv etmişdir? Günahkarlar öz günahları barəsində sorğu-sual olunmaz (üzlərindən tanınarlar). Qarun öz zinəti içində xalqının qarşısına çıxdı. Dünya həyatını arzulayanlar dedilər: “Kaş ki, Qaruna verilənin bənzəri bizə də veriləydi! Həqiqətən, o, böyük qismət sahibidir”. Elm verilmiş kəslər isə dedilər: “Vay halınıza! İman gətirib yaxşı əməl işlədən kimsə üçün Allahın mükafatı daha xeyirlidir. Buna isə yalnız səbir edənlər nail olarlar”. Biz onu öz evi ilə birlikdə yerə batırdıq. Allaha qarşı ona kömək edə biləcək havadarları yox idi. Və özü də özünə kömək edə bilmədi. Dünən onun yerində olmağı arzulayanlar ertəsi gün deyirdilər: “Ah, demək Allah Öz qullarından istədiyi kəs üçün ruzini artırar da, azaldar da. Əgər Allah bizə lütf etməsəydi, bizi də yerə batırardı. Ah, demək kafirlər nicat tapmayacaqlarmış!” Biz o Axirət yurdunu yer üzündə təkəbbürlük etmək və fitnə-fəsad törətmək istəməyənlərə nəsib edirik. Gözəl aqibət müttəqilərindir. (Qəsas surəsi, 76-83 )**

Ayələrdən aydın olduğu kimi, Qarun və ona etina edənlər klassik bir cahil cəmiyyətidir. Bütün mülkün Allaha məxsus olduğunu və Allahın, mülkü istədiyinə verdiyini qavraya bilməmişlər. Qarun, özünə verilən mülkün "onda olan bir üstünlük səbəbiylə" verildiyini zənn edir. Halbuki;

- Hər şeyin Yaradıcısı Allah olduğuna görə, hər şeyin həqiqi sahibi də Odur. İnsanlar, hamısı Allaha aid olan bu mülkə yalnız keçici bir müddət üçün "əmanətçi" dərəcəsində sahib ola bilərlər.

- İnsanlara verilmiş olan nemətlər, onlarda olan bir üstünlük və ya xüsusiyyətdən ötəri deyil, yalnız bir nemət və imtahan olaraq verilmişdir. "Qürurlanmaq" üçün deyil, "şükür" etmək üçün verilmişdir. Əgər bunun fərqində olmazlarsa, sahib olunan mülk, həm dünyada və həm də axirətdə insana xoşbəxtlik və qurtuluş gətirməyəcək.

-Mülk, xəsislik edərək "yığıb-toplamaq" üçün deyil, Allah rizası üçün istifadə edilmək üzrə verilir. Belə etməyənlərin sonunu Allah Quranda belə bildirir:

**Allahın Öz lütfündən bəxş etdiyini xərcləməyə xəsislik edənlər elə güman etməsinlər ki, bu, onların xeyrinədir. Əksinə, bu, onlar üçün pisdir. Onların xəsislik etdikləri şey qiyamət günü boyunlarına dolanacaqdır. Göylərin və yerin mirası Allaha məxsusdur. Allah nə etdiklərinizdən xəbərdardır.. (Al-i İmran surəsi, 180)**

- Mömin Allahın verdiyi mülkü, ağıllı bir şəkildə, Allah rizası üçün xərcləyərkən, bunun bitib-tükənəcəyindən də qorxmamalıdır. Rəbbimiz Quranda bu təhlükəyə diqqət çəkib, şeytanın insanı "yoxsulluqla qorxutduğu"nu (Bəqərə surəsi, 268) xatırlatmışdır, və Öz yolunda xərclənən (infaq edilən) malın yerinə, bir başqasını verəcəyini də bildirmişdir. Mövzuyla əlaqədar ayə belədir:

**De ki: "Həqiqətən, Rəbbim, qullarından istədiyi kimsənin ruzisini artırar yayar və azaldar da. Hər nəyi xərcləsəniz, O (Allah), yerinə bir başqasını verir; O, ruzi verənlərin ən yaxşısıdır." (Səba surəsi, 39)**

Yuxarıda bəhs etdiyimiz Qarun hekayəsi əslində cahil cəmiyyətlərinin ümumi bir xarakterini ortaya qoyur. Ayələrdə xəbər verildiyi kimi, Qarun əslində "cahil" cəmiyyətində olan bir xarakteri təmsil edir. Bu xarakter, cahil cəmiyyəti daxilində zənginliyi və etibarıyla diqqəti çəkən bəzi kəslərdir.

Ayələrdə həmçinin, Qarunun etina edənlər izah edilir. Bunlar da Qarunla eyni cahil anlayışı paylaşır, mülkün sahibinin Allah olduğunu qavramırlar. Bu səbəbdən Qarunu və sahib olduqlarını gözlərində böyüdürlər.

Cahil cəmiyyətin təlqinindən xilas olmuş olanlarsa yalnız möminlərdir. Onlar;

- Meyarlarının pul deyil, iman olduğunu və mülkün həqiqi sahibinin Allah olduğunu qavramış olduqları üçün, Qarunun həsəd aparılacaq deyil, acınacaqlı vəziyyətdə olduğunu görə bilmişlər.

- Cahil cəmiyyətinin üzvləri kimi, ancaq Qarunun mülkü yox olduqdan sonra "Demək ki, Allah Öz bəndələrindən istədiyinin ruzisini artırarmış və ya azaldarmış" deməyiblər, eyni həqiqəti əvvəlcədən görüb-bilmişlər.

Bənzər bir vəziyyət, Allahın Kəhf surəsində izah etdiyi "bağça sahibləri"ndə də görünür. Özünə bol nemət və mülk verilərək eyni Qarun kimi özünü bunların həqiqi sahibi sanan insanla, Allaha iman edən Ondan qorxub-çəkinən mömin arasındakı fərqi Rəbbimiz ayələrdə belə izah edir:

**Onlara iki kişinin əhvalatını misal çək. Bunların birinə iki üzüm bağı verib onları xurmalıqlarla əhatə etdik və aralarında əkin saldıq. Hər iki bağ öz barını verdi və bu bardan heç bir şey əskilmədi. Biz də onların arasından bir çay axıtdıq. Onun başqa sərvəti də var idi. O öz mömin yoldaşı ilə söhbət edərkən ona: "Mən sərvətcə səndən daha zəngin və adamlarıma görə səndən daha qüvvətliyəm!" – dedi. O özünə zülm edərək bağına daxil olub dedi: "Bunun nə vaxtsa yox ola biləcəyini düşünmürəm. O Saatın gələcəyini də zənn etmirəm. Rəbbimin yanına qaytarılmalı olsam, sözsüz ki, bundan daha firavan bir həyat qismətim olacaq!" Onunla söhbət edən yoldaşı isə dedi: "Səni torpaqdan, sonra nütfədən yaratmış, daha sonra səni kişi qiyafəsinə salmış Rəbbinə küfrmü edirsən? Lakin Allah mənim Rəbbimdir və mən heç kəsi Rəbbimə şərik qoşmaram! Bağına girdiyin zaman: "Maşallah (Allahın istədiyidir)! Qüvvət yalnız Allaha məxsusdur!" – deməli deyildinmi? Əgər var-dövlətcə və övladca məni özündən kasıb sayırsansa, ola bilsin ki, Rəbbim mənə sənin bağından daha yaxşısını versin, sənin bağına isə göydən bir bəla göndərsin və o, hamar bir yerə dönsün. Yaxud suyu çəkilib getsin və bir də onu axtarıb tapa bilməyəsən!" Beləcə, onun bağının məhsulu bir anda məhv edildi. O, bağını belə görüb ora qoyduğu xərcə görə peşmançılıq çəkməyə və əllərini bir-birinə vurmağa başladı. Bağın talvarları belə darmadağın olub yerə yıxılmışdı. O dedi: "Kaş Rəbbimə heç kəsi şərik qoşmayaydım!" Allahdan başqa ona yardım edə biləcək dostlar yox idi və o da öz-özünə kömək edə bilməzdi. Belə hallarda kömək**

**etmək ancaq Haqq olan Allaha məxsusdur. Ən yaxşı mükafat verən və ən gözəl aqibət nəsib edən Odur. (Kəhf surəsi, 32-44 )**

**Maddi dəyərlərə həddindən artıq əhəmiyyət verənlər**

Qurani Kərimin bir çox hekayəsində, müsəlmanların qarşılaşdığı, özlərinə din əxlaqını təbliğ etdikləri və əksəriyyətlə mənfiliklərinə qarşı fikri mübarizə içində olduqları bir seqment izah edilmişdir. Demək olar ki, bütün peyğəmbər hekayələrində bildirilən bu insanların xüsusiyyətləri də ayələrdə çox açıq bir şəkildə xəbər verilmişdir.

Rəbbimiz Quranda, bu birliyi, "qövmün qabaqcıl təkəbbürlüləri", "rifah içində öyünənlər", "günah işləyənlər", "haqsız yerə lovğalananlar" kimi ifadələrlə tanıtmışdır. Bu kəslərin ortaq xüsusiyyətləri, özlərinə verilən güc və imkanları, Allaha üsyan və yer üzündə fitnə-fəsad törətməkdə istifadə etmələridir. Ayələrdə belə bildirilmişdir:

**Biz hansı bir məmləkətə xəbərdarlıq edən peyğəmbər göndərdiksə, onun cah-calal içində yaşayan sakinləri ona sadəcə olaraq: “Biz sizinlə göndərilənləri inkar edirik!” – dedilər. Onlar: “Bizim mal-dövlətimiz də, övladlarımız da daha çoxdur və bizə əzab verilməyəcəkdir” – dedilər. (Səba surəsi, 34-35)**

Ayələrdə xəbər verilən məlumatlar əsasında bəhsi keçən bu seqmentlərin xüsusiyyətlərini belə saya bilərik;

- Özlərinə verilən rifah, "mallar və oğullar", bəhsi keçən seqmentin yaxşıca təkəbbürlənməsinə, Allahı inkar etməsinə, Ona baş qaldırmalarına (Allahı tənzih edirik) səbəb olar:

**Ad xalqına gəlincə, onlar yer üzündə haqsızcasına təkəbbür göstərib: “Bizdən daha qüvvətli kim ola bilər?” – dedilər. Məgər onları yaradan Allahın onlardan daha qüvvətli olduğunu görmürdülərmi? Onlar ayələrimizi, sadəcə, inkar edirdilər. (Fussilət surəsi, 15)**

Ancaq burada bunu da ifadə etməkdə fayda vardır: Geniş maddi imkanlara sahib olmaq mənfi bir xüsusiyyət deyil. Ancaq insanın bu imkanların özünə verənin Uca Allah olduğunun fərqində olması və sahib olduğu hər şey üçün Allaha şükür etməsi lazımdır. Səhv olan, insanların dünya həyatında özlərinə təqdim edilən imkanlar səbəbiylə

qürurlanmaları və bunun inkarlarına vəsilə olmasıdır. Necə ki, Quranda pis xüsusiyyətləri ibrət olaraq bildirilən kəslər də belə bir səhvə yönələn insanlardır.

- Möminlərin Quran əxlaqını təbliğ edərkən ən çox reaksiya aldıqları birliyi də çox vaxt yenə bu "rifah içində yaşayan başçıları" yaradır. Bəhsi keçən bu seqmentlər, Allaha təslim olmağı və əllərindəki imkanları Onun istədiyi şəkildə istifadə etməyi qəbul etmədiklərindən, möminlərə kin duyarlar. Məsələn, məkkəli müşriklər arasında bu qəzəbləri səbəbiylə sevimli Peyğəmbərimiz (s.ə.v)-i həbs etməyə, yaşadığı yerdən zorla çıxarmağa və öldürməyə belə cəhd etmişlər:

**Bir zaman kafirlər səni həbs etmək, öldürmək və ya yurdundan qovmaq üçün sənə qarşı hiylə qururdular. Onlar hiylə işlətdilər, Allah da hiylə işlətdi. Allah hiylə işlədənlərin ən yaxşısıdır. (Ənfal surəsi, 30)**

Quran ayələrində təfərrüatlı olaraq xüsusiyyətləri bildirilən bu əxlaqdakı birliklərin bənzər nümunələrinə hal-hazırda da bəzi cəmiyyətlərdə rast gəlmək mümkündür. Dünyanın müxtəlif ölkələrində, qarışıq bir həyat yaşayan, hər cür əxlaqi azğınlığı guya qanuni görən və maddi imkanları çox olduğu üçün cəmiyyətin üstün sinfini meydana gətirən bu insanlar, ictimai əxlaqi çöküntünü meydana gətirən təməl ünsürlərdəndir. Hər cür cinsi pozğunluğun yaşandığı, narkotik və spirt istehlakının çox yüksək səviyyələrdə olduğu azğın əyləncə anlayışına sahib bu birliklərin səbəb olduğu mənəvi çöküntü, bəzi Cənubi Amerika, Cənubi Asiya və qərb ölkələrində açıq şəkildə görünür.

Ancaq unudulmamalıdır ki, əxlaqsızlıq, saxtakarlıq, fırıldaqçılıq, haqsızlıq və ədalətsizlik üzərinə qurulan heç bir sistem daimi olmaz. Hər cür batil və qarışıq sistem yox olmağa məhkumdur. Bu həqiqət bir Quran ayəsində bu şəkildə xəbər verilmişdir:

**Bütün bunlar onların yer üzündə təkəbbür göstərmələrinə və yaramaz hiyləgərliklər törətdiklərinə görə idi. Yaramaz hiylələr isə ancaq öz sahiblərini qaplayar. Onlar əvvəlkilərin başlarına gələn aqibətdən başqasınımı gözləyirlər? Sən Allahın qayda-qanununa heç bir əvəz tapa bilməzsən, Allahın qayda-qanununda heç bir dəyişiklik də tapa bilməzsən. (Fatir surəsi, 43)**

Göründüyü kimi, yer üzündə təkəbbürlü, sahib olduğu imkanlar səbəbiylə ərköyünlüyə qapılan, bu imkanları əxlaqsız bir həyat yaşamaq və yaşatmaq üçün istifadə edən hər qrupun, məğlubiyyətə uğrayacaq olması Allahın bir hökmüdür. Amma bütün bu insanlar dünyadaykən tövbə edib, pis əməllərdən imtina etmək imkanına sahibdirlər. Belə bir sistemə daxil olan kəslər, Allahın hər zaman üçün bağışlayan olduğunu, bu yoldan

dönüb iman edən, vətəninin və millətinin xeyri üçün işə başlayan, yaxşı və haqlı rəftar göstərən kəsləri bağışlayan olduğunu unutmamalıdırlar.

Kim doğru yolla gedərsə, əvvəlcə öz yaxşılığı üçün doğru yola tabe olmuş olar. Buna baxmayaraq, kim təkrar pisliyə və azğınlığa dönsə, şübhəsiz Rəbbimizin əzabı çox şiddətli olandır. Allah bir ayədə belə buyurur:

**Kim doğru yolla getsə, xeyri onun özünə olar, kim azğınlığa düşsə, ziyanı da onun öz əleyhinə olar. Heç bir günahkar başqasının günahını daşımaz. Biz elçi göndərməmiş heç kəsə əzab vermirdir.(İsra surəsi, 15)**

## Cahil cəmiyyətində yanlış əxlaq anlayışı

Quranda Allahın tərif etdiyi möminlərin əxlaqı Allah qorxusu və rizası üzərində qurulmuşdur. "Cahil" cəmiyyətində isə, dəyər mühakiməsi "təqva" üzərində qurulmadığı üçün, əxlaq anlayışı da səhvdir;

- "Cahil" cəmiyyəti, Allahın sonsuz qüdrətinin fərqində olmadığı üçün, əxlaq anlayışını "insanlar nə deyər" meyarına əsaslandırmışdır. Bu vəziyyətdə əxlaq xarici bir davranış, cəmiyyətin digər üzvlərinin görmədiyi və bilmədiyi bir mühitdə rahatca edilə bilər. Ya da bu əxlaq xarici anlayışa, cəmiyyətin digər üzvlərinin bu davranışı qanuni görməsini təmin edəcək yeni ad və şəkillər tapılar.

Məsələn, zinanın əxlaq xarici bir davranış olduğunu "cahil" cəmiyyətində də bir çox adam qəbul edər. Bu səbəblə, bu cəmiyyətin üzvlərinin bir qismi zina etsə də "mən zina edirəm" deyə açıq şəkildə söyləməz. Amma kimsənin görmədiyi və bilmədiyi bir şəkildə bu hərəkəti rahatlıqla edə bilər.

Bunu, cahil cəmiyyətin insanlarının bir çoxunun həyatlarının hər anında izləmək, günün hər saatında müxtəlif nümunələriylə görmək mümkündür.

## Sonsuza qədər yaşamaq istəyi

**De: “Qaçdığınız ölüm sizi mütləq haqlayacaqdır. Sonra siz qeybi və aşkarı Bilənin hüzuruna qaytarılacaqsınız. O da sizə nə etdiklərinizi xəbər verəcəkdir”. (Cümə surəsi, 8)**

Allahın və axirətin varlığına qəti olaraq iman etməyən "cahil" cəmiyyəti mənsublarının ən diqqətə çarpan xüsusiyyətlərindən biri, "heç ölməyəcəkmiş kimi" yaşamalarıdır. Bu cəmiyyətdə ölüm, hər kəsin bildiyi amma qəti şəkildə danışmadığı, adını ağzına almadığı bir mövzudur. Bütün planlar ölüm yox sayılaraq edilər. Sanki "bu dünya" da sonsuza qədər yaşayacaqmış kimi sərvət yığarlar. Bütün planlar, ölüm göz qarşısına alınmadan edildiyi üçün, bu qaçınılmaz sondan bəhs etmək "boşboğazlıq, kobudluq” olaraq qəbul edilir.

Məhz cahil cəmiyyətin insanlarının yanlış bir məntiq üzrə yaşadıqlarının ən açıq göstəricilərindən biri də budur. Hər insan, **"hər kəs ölümü dadacaqdır"** ( Al-i İmran surəsi, 185) hökmü gərəyi mütləq öləcəyinə görə, ölüm həqiqəti nəzərə alınmadan qurulan bir həyat əlbəttə, çürük bir təməl üzərinə qurulmuş olar. Halbuki, insan mütləq ağlını və vicdanını istifadə etməlidir;

- Özünə sonsuz həyat istəyi verildiyinə görə, nə üçün orta hesabla 60-70 il kimi qısa bir müddət yaşadılıb, sonra da həyatına son verildiyini oturub düşünməlidir.

- Ölümü düşünməyərək heç bir şəkildə ölümdən qaça bilmədiyini, ancaq ovçudan qaçmaq üçün başını quma soxan dəvəquşu kimi ağılsızlıq etdiyini fərq etməlidir.

- Özünü ən mükəmməl bir şəkildə, bir spermadan yaradan Allahın, onu yenidən dirildib yaşatma gücünə sahib olduğunu qavramalıdır.

- Və onu öldükdən sonra yenidən dirildib yaşadacağını yüzlərlə ayədə vəd edən və xəbər verən Allahın, bu sözünü əlbəttə tutacağını bilməlidir.

O zaman ölümün yox olmaq deyil, axirətə keçiş qapısı olduğunu qavramağa başlaya bilər.

- Bu vəziyyətdə ölümdən qorxmağın bir mənası olmadığını anlaya bilər. Onsuz da ölümdən qorxmağın bir faydası yoxdur, çünki ölüm qaçınılmazdır. Hər kəs qədərində təyin olunan zamanda öləcək. Ölüm qorxusuna qapılanları, Allah Quranda belə xəbərdar etmişdir:

**... Onlar sənə bildirmədiklərini öz içərilərində gizlədir: “Əgər bu işdə bizim üçün bir xeyir olsaydı, elə buradaca öldürülməzdik” – deyirlər. De: “Əgər siz evlərinizdə**

**olsaydınız belə, öldürülməsi qabaqcadan müəyyən edilmiş kimsələr yenə çıxıb öləcəkləri yerlərə gedərdilər. Allah sizin kökslərinizdə olanları sınamaq, qəlblərinizdə olanları təmizləmək üçün belə etdi. Allah kökslərdə olanları bilir." (Al-i İmran surəsi, 154)**

Amma axirətə keçiş qapısı olan ölüm, ancaq həyatını Allah rizasına uyğun olaraq dəyərləndirənlər üçün xoşbəxtlik və qurtuluşa açılır. Allahdan üz çevirmiş olanlar üçünsə, ölüm qəti bir məhv olma və fəlakətin başlanğıcıdır. Heç ölməyəcəkmiş kimi yaşayaraq Allahı unudanlar, ölüm gəldiyində hiss edəcəkləri peşmanlığın bir şey ifadə etməyəcəyini Rəbbimiz Quranda xəbər vermişdir:

**Günah işlər görməkdə davam edənlərdən birinə ölüm gəldiyi zaman: "Mən indi tövbə etdim!" – deyənlərin də, kafir kimi ölənlərin də tövbəsi qəbul deyildir. Biz onlar üçün ağrılı-acılı bir əzab hazırlamışıq. (Nisa surəsi, 18)**

**Nəhayət, onlardan birinə ölüm gəldiyi zaman deyər: "Ey Rəbbim! Məni geri qaytar. Bəlkə, tərk etdiyim yaxşı əməlləri indi edəm". Xeyr! Onun bu dedikləri ancaq boş bir sözdür. Onların arxasında diriləcəkləri günə qədər bərzəx həyatı vardır. (Muminun surəsi, 99-100)**

Özünü Allaha həsr edən hər kəs, Allahın diləməsi xaricində bu peşmançılığı yaşayacaq.

Elə isə, madam həyat çox qısadır, bu həyatdan sonra sonsuz bir həqiqi həyat vardır və madam o sonsuz həyat, bu dünyada Allahın razılığını axtararaq qazanılacaq; bu vəziyyətdə;

- İnsanın buradakı qısa və dəyərsiz həyatından çox, ölümdən sonra başlayacaq həqiqi həyatını düşünməsi lazımdır. Bu üzdəndir ki, bu həqiqəti qavramış olan möminlər **"sırf (axirəti əsl) yurdu düşünüb - anan ixlas sahibləri"**dirlər. (Sad surəsi, 46)

- Dünyada əldə ediləcək sərvət və imkanlara ehtirasla bağlanmağın bir mənası yoxdur. Heç kim nə malını, nə gözəlliyini, nə qüvvəsini, nə ailəsini, nə də şöhrətini axirətə apara bilməz. Bunların heç biri məzardakı insana yoldaşlıq edə bilməz. Məzara girən yalnız kəfənə sarılı bir bədəndir; o da qısa bir müddət içində qurdlanıb çürüməyə başlayacaq.

- Bu dünyadan axirətə aparılacaq tək şey Allah rizası üçün edilmiş olan saleh əməl və ibadətlərdir. O zaman bu dünyada qısa bir müddət üçün insana verilmiş olan nemətlər

(sağlamlıq, gözəllik, sərvət və s.), axirətdə əbədi olaraq və çox daha gözəli ilə yenidən insana veriləcək.

- Bu həqiqəti qavramayaraq malını və bədənini Allah rizası üçün xərcləməkdən çəkinib "xəsislik" edən, öz axirətini məhv etməklə əslində özünə xəsislik edir. Mövzuyla əlaqədar bir ayə belədir:

**Budur, siz Allah yolunda malınızdan xərcləməyə dəvət edilirsiniz. Aranızda isə simiclik edənlər də tapılır. Kim simiclik etsə, ancaq öz əleyhinə etmiş olar. Allah Zəngin, siz isə kasıbsınız. Əgər üz çevirsəniz, yerinizə sizin tayınız olmayan başqa insanlar gətirər. (Məhəmməd surəsi, 38)**

Bunları qavraya bilməyən və dünyaya böyük bir sevgiylə bağlanmış olanlar, özlərini guya "ölümsüz"ləşdirməyə çalışarlar. "Geridə adını davam etdirəcək bir şey qoymaq" istəyi bu səbəbdəndir. Bunun müxtəlif formaları vardır:

- Bəziləri arxalarında "adlarını davam etdirəcək" əsərlər qoymağı sınayar. Allah Quranda bu rəftarı belə xəbər verir:

**"Siz, hər təpədə bir abidə inşa edib (faydasız bir şeylə) əylənirsiniz? Ölümsüz qılınmaq ümidiylə sənət tikililəri mi hazırlayırsınız?" (Şuəra surəsi, 128-129)**

- Bu psixologiyanın ən diqqətə çarpan nümunələrindən biri də "uşaq böyütməyə" qarşı olan həddindən artıq istəkdir. Axirəti ümid etməyənlər, ümumiyyətlə arxalarında adlarını xatırlayıb, davam etdirəcək uşaq qoymaq həvəsində olurlar. Xüsusilə oğlan uşağı istənilməsinin də səbəbi budur. "Uşaq sahibi olma" ehtirasının dünya həyatının keçici bəzəyi olduğunu Rəbbimiz bir ayədə belə xəbər verir:

**Bilin ki, dünya həyatı oyun və əyləncə, bəzək-düzək, bir-birinizin yanında öyünmək, var-dövləti və oğul-uşağı çoxaltmaq istəyindən ibarətdir. Bu elə bir yağışa bənzəyir ki, ondan əmələ gələn bitki əkinçiləri heyran edir. Sonra o quruyur və sən onun sapsarı olduğunu görürsən. Sonra isə o çör-çöpə dönür. Kimisini axirətdə şiddətli əzab, kimisini də Allahdan bağışlanma və razılıq gözləyir. Dünya həyatı isə aldadıcı ləzzətdən başqa bir şey deyildir. (Hədid surəsi, 20)**

Əlbəttə, insanın gözəl əxlaqlı, xeyirli insanlar yetişdirmək istəməsi məqbuldur. Ancaq cahilliyin yanlış sistemində insanların bu istəyinin səbəbi Allahın razı olması deyil, öz eqoizmlərini təmin etmək, öz ağıllarına görə dünyada qalıcı bir ad qoymaqdır.

Halbuki Qurana baxdığımızda möminlərin uşaq sahibi olmağı, ancaq Allahın razılığı üçün istədiklərini və uşaqlarını da Allah rizasına uyğun olaraq böyütdüklərini görərik. Peyğəmbərlərin çoxu, yaşadıqları dövr və mühitdə belə bir imkanları olmadığı üçün uzun müddət uşaq sahibi olmamış, ancaq yaşlandıqları zaman özlərindən sonra din əxlaqını təbliğ edərək, müdafiə etməyə davam etməsi üçün Allahdan uşaq istəmişlər.

**Cahil cəmiyyətindəki din anlayışı**

İndiyə qədər xüsusiyyətlərini saydığımız, Allahı lazım olduğu kimi təqdir edə bilməyən, bu səbəblə də "cahil" olma xüsusiyyətini daşıyan cəmiyyət quruluşu, dini də öz yanlış məntiq və inancları istiqamətində şərh etmişdir. Bunun nəticəsində ortaya çıxmış olan din anlayışı, Quranda Allahın əmr etdiyi həqiqi dindən çox fərqlidir. Rəbbimiz Quranda hz. Məhəmməd (s.ə.v)-ə vəhy edilən dini, **"... insanların "ağır yüklərini, üzərlərindəki zəncirləri endirən ...** "(Əraf surəsi, 157), "içində heç bir çətinlik olmayan" bir din olaraq bildirir:

**... O , sizi seçdi və dində sizin üçün heç bir çətinlik yeri qoymadı, atanız İbrahimin dinində olduğu kimi. O, bundan daha əvvəl də, bunda (Quranda) da sizi "Müsəlmanlar" olaraq adlandırdı ... (Həcc surəsi, 78)**

Quranda insanlar, düşünməyə, tabe olduqları səhv inam və yolları fərq edərək Allahın istədiyi şəkildə bir həyat tərzinə çağırılırlar.

Cahil cəmiyyəti isə Quranın çox dəqiq və aydın mesajını görməzlikdən gələrək, İslam adına qatı mühafizəkar bir dini törətmişdir. Cahilliyənin meydana gətirdiyi bu yanlış din anlayışının bəzi xüsusiyyətlərini belə saya bilərik:

- Quranda Allahın bildirdiyi din, yalnız Allaha qul olmağı və Ondan başqa varlıqları ilah etməməyi əmr edər. Buna görə insan yalnız Allahın razılığını axtarmaqla məsuldur, başqalarının məmnuniyyətini axtarmaq kimi bir məcburiyyəti yoxdur. Cahil isə, dini Allahın razılığını axtarmaq üçün bir yol kimi görmür. Cahil cəmiyyətin bu səhv anlayışına görə

ortaya çıxan din, "insanlar nə deyər?" qorxusuna əsaslanan və həqiqi din əxlaqından tamamilə ayrı bir quruluşdur.

- Quran əxlaqını bilməyən və anlamayan cahilin din anlayışı, bir sıra batil etiqadlara əsaslanır. Müxtəlif yerli adət və inanclar dinə əlavə olunmuş, dindar olmaq, atalardan gələn batil bəzi inanclara bağlı olmaqla eyni şey halına gətirilmişdir. Halbuki, Quranda Allahın tərif etdiyi və Peyğəmbərimiz (s.ə.v)-in həyatında ən gözəl nümunələrini gördüyümüz dinin bunlarla heç bir əlaqəsi yoxdur. Quranda Rəbbimiz, yalnız Öz sərhədlərini və Peyğəmbər (s.ə.v)-in sünnəsini ölçü almağı əmr edir. Tarix boyunca peyğəmbərlər haqqın qarşısına atalarından öyrəndikləri batil inanclarla çıxmağa cəhd edənlərlə mübarizə aparmışdırlar. Onların bu əxlaqlarını Allah ayələrdə belə xəbər vermişdir:

**Onlara: "Allahın nazil etdiyinə tabe olun!" – deyildikdə, onlar: "Xeyr, biz atalarımızın tutduğu yolu tutacağıq!" – deyirlər. Bəs ataları bir şey anlamayıb doğru yola yönəlməyiblərsə necə? (Bəqərə surəsi, 170)**

Eyni mövzu, Maidə surəsi, 104; Ənam surəsi, 91; Əraf surəsi, 28 və daha bir çox ayədə təkrarlanır.

- Dini bu səhv anlayışla qiymətləndirən bəzi cahil cəmiyyətin insanları, bu rəftarlarının təbii bir nəticəsi olaraq dinin ağıldan ayrı olduğu səhvinə qapılmışlar. Halbuki, Allahın Quranda bildirdiyinə görə ağıl, mömin olmanın əsasıdır. Möminlər davamlı düşünməyə, araşdırmağa və Allahın ayələrini bu yolla görüb tanımağa dəvət edilərlər. İman və ağıl bir-biri ilə əlaqəlidir; ağlı istifadə etməyin bir nəticəsi olaraq iman edilir, ağıldan istifadə olunduqca imanı daha da güclənər.

- Cahil cəmiyyətin düşüncəsi dində olmayan bəzi qaydaları varmış kimi göstərir, halalı haram etməkdə bir qorxu görmür. Quranda, bir çox insanın çətinliyini duyduğu bu məntiqin səhvi bu şəkildə bildirilmişdir:

**De: "Allahın Öz qulları üçün üzə çıxartdığı zinəti və təmiz ruziləri kim haram etmişdir?" De: "Bunlar dünya həyatında hamıya, Qiyamət günü isə yalnız möminlərə məxsusdur". Biz dərk edən adamlar üçün ayələri belə izah edirik. (De: "Rəbbim həm aşkar, həm də gizli törədilən yaramaz əməlləri, hər cür günahı, haqsızcasına zülm etməyi, Allahın, haqqında heç bir dəlil nazil etmədiyi bir şeyi Ona şərik qoşmağınızı və bilmədiyiniz şeyləri Allahın əleyhinə söyləməyinizi haram buyurmuşdur". (Əraf surəsi, 32-33)**

**Allah, – məcburiyyət qarşısında yeyəcəyiniz şeylər istisna olmaqla – haram buyurulanları təfərrüatı ilə sizə bildirdiyi halda, üstündə Onun adı çəkilənlərdən nə üçün yeməyəsiniz? Şübhəsiz ki, çoxları elmsiz olduqları üçün öz istəklərinə uyub insanları doğru yoldan azdırırlar. Həqiqətən, sənin Rəbbin, həddi aşanları daha yaxşı tanıyır. (Ənam surəsi, 119)**

**Ey iman gətirənlər, Allahın sizin üçün halal etdiyi gözəl şeyləri haram etməyin və həddi aşmayın. Həqiqətən, Allah həddi aşanları sevməz. (Maidə surəsi, 87)**

- Cahilliyin meydana gətirdiyi batil anlayış səbəbiylə İslam, bəzi kəslər tərəfindən olduğundan çox fərqli tanıdılmaq istənmişdir. Halbuki İslam, ağlın, gözəlliyin, sevginin, anlayışın, mehribanlığın, mərhəmətin, təmizliyin, incəsənətin, keyfiyyətin, nəcibliyin hakim olduğu haqq dindir. Peyğəmbərlər, yaşadıqları dövrlərin ən mədəni insanlarıdır. Son dərəcə mədəni və estetik dəyərlərə sahib kəslərdir. Peyğəmbərimiz (s.ə.v.) nəzakətil, estetik zövqünün keyfiyyətiylə, gözəlliyiylə, təmizliyiylə və üstün ağlıyla bütün möminlərə ən gözəl nümunədir. Hz. Süleyman (ə.s.) da bu həqiqətin ən açıq nümunələrindən biridir. Sarayı arxitektura möcüzələri ilə, estetik məkanlarla doludur.

Müsəlman olmaq Allaha qul olmaq və Onun verdiyi nemətləri Ona şükür edərək istifadə etməkdir. Allahı tanımanın və həqiqətən üstün əxlaqlı bir insan ola bilməyin səyidir.

Həqiqi müsəlman, özünü yaradan sonsuz qüdrət sahibi Allahın razılığını axtaran, Onun razılığından başqa heç bir maddi və ya mənəvi qarşılıq gözləməyən adamdır.

Məhz müsəlmanlığın xüsusiyyətindən biri budur.

## Allahdan başqa ilahlar qəbul edənlərin əbədi məkanı: CƏHƏNNƏM

Məgər Allahın razılığını qazanmaq üçün gedən kimsə, Allahın qəzəbinə gələn və sığınacaq yeri Cəhənnəm olan bir kimsə ilə bərabər tutula bilərmi? Ora nə pis qayıdış yeridir! (Al-i İmran surəsi, 162)

- Alçaldıcı və əbədi bir əzab yeridir. (Tövbə surəsi, 63, 68; Maidə surəsi, 80; Ənam surəsi, 128; Hud surəsi, 107; Nəhl surəsi, 29; Ənbiya surəsi, 99; Nisa surəsi, 14, 151)

- Atəşi çox şiddətli və qovurucudur. (Məaric surəsi, 15-16; Al-i İmran surəsi, 181; Əhzab surəsi, 64; Həcc surəsi, 72; Nur surəsi, 57; Furqan surəsi, 11)

- Qorxunc bir uğultusu vardır. (Furqan surəsi, 12; Mülk surəsi, 7-8)

- Allahın yaratdığı ən pis sığınma yeridir. (Al-i İmran surəsi, 162; Nisa surəsi, 115)

- Əzabı fasiləsizdir və əsla yüngülləşməz. (Mömin surəsi, 46-47; Maidə surəsi, 37; Yunis surəsi, 52; Beyyinə surəsi, 6; Həcc surəsi, 22; Al-i İmran surəsi, 88; Fatir surəsi, 36)

- Ölərək xilas olma imkanı da yoxdur. (İbrahim surəsi, 17)

- Kömək edə biləcək heç bir kimsə yoxdur. (Al-i İmran surəsi, 91)

- Qaçış və qurtuluş yolu yoxdur. (Maidə surəsi, 37; Kəhf surəsi, 53; Bələd surəsi, 19-20)

- Başlarındakı gözətçilər mələklərdəndir. (Mömin surəsi, 49-50; Zuxruf surəsi, 77; Müddəssir surəsi, 26-31)

- Yanacağı insanlar və daşlardır. (Bəqərə surəsi, 24; Təhrim surəsi, 6; Al-i İmran surəsi, 10; Ənbiya surəsi, 98; Hud surəsi, 119; Səcdə surəsi, 13)

- Odla dağlama vardır. (Tövbə surəsi, 35)

- Sümükləri sındıran inləmələr eşidilər. (Ənbiya surəsi, 100)

- Günahkarlar buxağılara vurulmuşdurlar. (İbrahim surəsi, 49)

- Qaynar su və irinli su içirdiləcəkdir. (Nəbə surəsi, 24-25; Ğaşiyə surəsi, 5; Vaqiə surəsi, 54-55; Yunis surəsi, 4; Sad surəsi, 57; İbrahim surəsi, 16-17)

- Yeməkləri zəqqum və darı tikanıdır. (Əd-Duxan surəsi, 43-46; Saffat surəsi, 62-66; Vaqiə surəsi, 52-53; Müzzəmmil surəsi, 13; Ğaşiyə surəsi, 6-7)

- Cəhənnəm əhli qətranla geyindirilmişlər. (İbrahim surəsi, 50)

**Yalnız Allahın rizasını axtaranların əbədi məkanı: CƏNNƏT**

Orada onlar üçün istədikləri hər şey hazırlanmışdır. Üstəlik hüzurumuzda bundan da artığı Allahı görmək vardır. (Qaf surəsi, 35)

- İnsanın zövq aldığı və istədiyi hər şey və daha artığı vardır. (Qaf surəsi, 35; Zuxruf surəsi, 71; Ənbiya surəsi, 102)

- Böyük bir mülk vardır. (İnsan surəsi, 20)

- Hər yanı nemətlərlə doldurulmuşdur. (Saffat surəsi, 43; İnsan surəsi, 20)

- Ölüm dadılmaz. (Əd-Duxan surəsi, 56)

- Əbədi yurddur. (Bəqərə surəsi, 25)

- Yorğunluq və ya sıxıntı duyulmaz. (Fatir surəs, 35)

- Sonsuz xoşbəxtlik vardır. (Yasin surəsi, 55)

- Tam bir rahatlıq vardır. (Vaqiə surəsi, 89)

- Olduqca genişdir. (Hədid surəsi, 21)

- Xoş bir həyat vardır. (Haqqə surəsi , 21)

- Hüzn və qorxu yoxdur. (Bəqərə surəsi, 62; Al-i İmran surəsi, 170; Fatir surəsi, 34; Əraf surəsi, 35)

- Geniş ehtiram görülər. (Saffat surəsi, 42)

- Qüsursuz bir şəkildə yeni bir yaradılışla yaradılmış, bakirə, tərtəmiz, hamar bədənli, iri gözlü və baxışları yalnız yoldaşlarına çevirmiş hurilər vardır. (Bəqərə surəsi, 25; Saffat surəsi, 49; Zuxruf surəsi, 70; Saffat surəsi, 48; Duxan surəsi, 54; Vaqiə surəsi, 22-23, 36-37; Rəhman surəsi, 56, 58, 70, 72; Nəbə surəsi, 33; Vaqiə surəsi, 35)

- Yüksək köşklər və gözəl məskənlər vardır. (Furqan surəsi, 10, 75; Ənkəbut surəsi, 58; Saff surəsi, 12)

- Narahat edici isti və ya soyuq yoxdur. Daima kölgəlikləri vardır. (İnsan surəsi, 13; Rad surəsi, 35; Mursəlat surəsi, 41; Nisa surəsi, 57)

- İçindən çaylar axar. (Bəqərə surəsi, 25)

- Süddən və baldan bulaqlar vardır. (Məhəmməd surəsi, 15)

- Yüksəklərdə qurulmuş döşək, ləl-cəvahiratlarla işlənmiş taxtlar vardır. (Vaqiə surəsi, 15, 34; Ğaşiyə surəsi, 13; Saffat surəsi, 44)

- Sıra-sıra yastıqlar, sərilmiş döşəkçələr, parlaq gözəllikdə döşəklər vardır. (Ğaşiyə surəsi, 15-16; Rəhman surəsi, 76, Vaqiə surəsi, 30)

- Bitib tükənməyən, hesabsız bir ruzi vardır. (Sad surəsi, 54; Mömin surəsi, 40)
- İçindəki nemətlər azalmaz. (İnsan surəsi, 13; Vaqiə surəsi, 33)

- Rahatlıqla əldə edilən növbənöv meyvələr vardır. (Vaqiə surəsi, 28, 29, 32; Nəbə surəsi, 32; Haqqə surəsi, 23; Rəhman surəsi, 68; İnsan surəsi, 14)

- Tərtəmiz su qaynaqları vardır. (Mutaffifin surəsi, 28; Ğaşiyə surəsi, 12; Rəhman surəsi, 50; İnsan surəsi, 6,18)

- Növbənöv incəliklər və gözəlliklər vardır. (Rəhman surəsi, 48)

- Atlasdan olan ağır işləməli yastıqlar vardır. (Rəhman surəsi, 54)

- Xidmət edən, tərtəmiz insanlar vardır. (Tur surəsi, 24)

- Saçılmış inci kimi ölümsüz vildanlar vardır. (İnsan surəsi, 19)

- İçənlərə sərxoşluq verməyən dümağ, qatqısız bir şərab var. (Mutaffifin surəsi, 25, 26; İnsan surəsi, 5; Saffat surəsi, 46-47; Vaqiə surəsi, 19; Tur surəsi, 23)

- İpəkdən və ağır işlənmiş atlasdan olan paltarlar, qızıl, gümüş və mirvaridən bəzək əşyaları vardır. (İnsan surəsi, 21; Həcc surəsi, 23)

- Yemək və içkilər qızıl və gümüşdən sinilər və səhənglərdə təqdim edilir. (Zuxruf surəsi, 71; İnsan surəsi, 15-16)

- İçindəki yeməklərin dadların dünyadakılara bənzəyir. (Bəqərə surəsi, 25)

Müsəlman, Allahın, dininə bağlananlara verdiyi bir addır. Quranda təsvir edilən müsəlmanları digər insanlardan ayıran əsas fərq isə, bu insanların Allahın sonsuz qüdrətinin tam mənasıyla fərqində olmalarıdır.

Allahın böyüklüyünü qavramaq bunu sözlə təsdiq etməkdən ibarət deyil. Müsəlmanlar Allahın varlığının və böyüklüyünün fərqinə varan, Onu çox sevən, Ondan "qorxub-çəkinən" və həyatlarını fərqinə vardıqları bu böyük həqiqətə görə təşkil edən insanlardır.

## TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

### Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

### Keçilməz ilk pillə: həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

### Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri “spontane generation” adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin “Növlərin mənşəyi” adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

“Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür”. *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

**XX əsrdəki nəticəsiz səylər**

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

"Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

**Həyatın kompleks quruluşu**

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

- **Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**
- **Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**
- **Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**
- **Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

## Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

**Lamarkın təsiri**

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

**Neodarvinizm və mutasiyalar**

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız

mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

## Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

**Darvinin puç olan ümidləri**

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". (Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl

tərəfindən yaradılmışlar”. *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni “növlərin mənşəyi” Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

## İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk “meymunabənzər əcdadları”na “cənub meymunu” mənasını verən “australopithecus” adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, “The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt”, Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də “homo”, yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: “*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib”, - deyərək bunu qəbul edir. *(J. Rennie, “Darwin's Current Bulldog: Ernst Mayr”, Scientific American, Aralık 1992)*

Təkamülçülər “*ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens*” ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus, homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

**Darvin formulu!**

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və

sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

## Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və

qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

## Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

## Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

“Bizim materializmə bir inancımız var, bu “a priori” (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan “a priori” bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik”. *(Richard Lewontin, “The Demon-Haunted World”, The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah’ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah’dır.

### Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah’ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan

həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**“Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar”. *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar “təsadüf”lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**…Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**

**Həqiqətən, Sən bilənsən, müdriksən!**

**(Bəqərə surəsi, 32)**

**Bu kitabda yalnız Allah üçün yaşayan və Quranda təsvir edilən mömin modeli izah edilir. Unudulmamalıdır ki, cənnət, Allaha və axirətə "qəti bir məlumatla" iman edib, sonra da Allah yolunda "ciddi bir səy" göstərənlərin yurdudur. Allaha ancaq "bir ucundan ibadət" edib, Allahın razılığı ilə bərabər öz sadə mənfəətlərini qorumağa çalışanlar isə Quranda bildirildiyi üzrə itirənlərdirlər. (Həcc surəsi, 11)**